# Səfir, yoxsa patrul Dekotini?

## *Ermənistanı qoruma illüziyası və Aİ-nin sərhəd missiyası*

**Fransanın Ermənistandakı səfiri Olivye Dekotini Ermənistanla Azərbaycanın şərti sərhədində olub. Bəri başdan deyək ki, Fransa Ermənistanı sülhdən yayındırdıqca, sərhəd, yaxşı halda, şərti olaraq qalacaq. Pis halda isə ümumiyyətlə, olmayacaq. Təbii, Ermənistan adlı dövlət yoxdursa, onun sərhədinin mövcudluğu da mümkünsüzdür. Görünür, hadisələr məhz bu səmtə doğru gedir. Yəni, Fransa Ermənistanı məhvə aparır. Bunu həm də haqqında söz açacağımız missiya məntiqi ilə edir.**

**(ardı 4-cü səhifədə)**




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 272 (30676) 10 dekabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

**1919-cu ildən çıxır** | **Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti**


# Parad görməmişdik bu parad kimi

## *2020-ci il dekabrın 10-da Bakıdan dünyaya möhtəşəm mesajlar verilmişdi*

**Bəli, biz belə parad görməmişdik. Heç qonşularımızda və ya postsovet ölkələrində də bu biçimdə parad görən çətin ki, ola. Mən sovet dönəmində böyük olmasa da, müəyyən ictimai vəzifələr daşıdığıma görə 1980-ci ildən sonra ölkədə keçirilən 9 May və 8 Noyabr paradlarının hamısında iştirak etmək məcburiyyətində olmuşdum. Bəlkə həmin paradlarda iştirak etmiş paytaxt sakinlərinin 90 faizdən çoxu meydana könülsüz və ya məcburən gəlmişdi. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradının iştirakçıları isə ölkənin az qala bütün guşələrindən "quş olub, uça-uça" gəlmişdilər.**



Əvvəlki paradların hamısında ancaq bir ölkənin – SSRİ-nin hərbi texnikası, silah-sursatı nümayiş etdirilirdi. 10 dekabr Zəfər paradında isə çoxsaylı xarici ölkələrdən gəlmiş qonaqlar və mətbuat təmsilçilərinin gözü qarşısında həm qalib Azərbaycan Ordusunun müasir hərbi texnikası, həm də məğlub Ermənistanın zəlil edilmiş ordusunun sınıq-salxaq, yandırılmış, dünya erməniliyinin gözdağına çevrilmiş tankı, topu, raketləri nümayiş etdirilirdi.

Əvvəlki paradlar haqqında ancaq Azərinformun və SİTA-nın iki-üç cümləlik xəbərlərini oxuyurduq. 10 dekabr 2020-ci ildə keçirilmiş Zəfər paradı haqqında isə 50-dən çox ölkənin mətbuat təmsilçiləri geniş reportajlar hazırlamışdılar.

Mən həmin paradın keçirildiyi gün – bilavasitə dekabrın 10-da Türkiyə Cümhuriyyətinin 20-yə qədər, Rusiya Federasiyasının isə 10-dan çox mətbuat vasitəsinin Bakıdan hazırladığı reportaj, süjet və ya xəbərin şahidi olmuşdum. Məsələn, "Rossiyskaya qazeta" həmin gün yazırdı ki, Türkiyə hökuməti Bakıda keçirilən Zəfər paradına İkinci Qarabağ müharibəsində həlak olmuş 2783 azərbaycanlı hərbçinin xatirəsinə ehtiram olaraq, məhz həmin sayda hərbçi göndərmişdir.

**(ardı 7-ci səhifədə)**

# Çapalama

## Ermənistan düşdüyü "siyasi bataqlıq" girdabından çıxa bilmir

**COP29-a qədər və sonrakı dönəmdə "sülhün bir addımlığında" olduğunu bəyan edən rəsmi İrəvan bir tərəfdən bütün dünyaya Qərbyönlü kursa sadiqliyini, Rusiyadan qopduğunu nümayiş etdirməyə çalışır, digər tərəfdən isə bu qütblərin hər ikisini təəccübləndirən hərəkətlərə yol verir. Bu məqamda Ermənistan baş nazirinin nəyə ümid etdiyini müəyyənləşdirmək də olmur.**

Müharibədə zəfər çalmış Azərbaycan hakimiyyətinin təmkinli, müstəqil və ədalətli siyasətini davam etdirməsinin fonunda Ermənistan rəhbərliyi özünün yaratdığı siyasi-diplomatik bataqlıqdan qurtulmağın yollarını aramaqdadır. Bu zaman, o, məntiqsiz, qeyri-konstruktiv, bəzi hallarda isə avantürist addımlar atır. Daxildə həm də xaos bataqlığına sürüklənən Paşinyan iqtidarının yeni siyasi mühit formalaşdırmaq cəhdlərini, komandasında "hava dəyişmək" taktikasını müşahidə edirik. Amma hayların baş naziri həm dövlətin, həm də millətin nicat yolunu yanlış ünvanlarda axtarır. Onsuz da səmərəsiz axtarışlar limiti tükənəndən sonra şərqlilərin "uzaq qohumdan yaxın qonşu yaxşıdır" deyiminin gerçəkliklə üst-üstə düşdüyünə əmin olacaq, gələcəyinin Azərbaycan və Türkiyə ilə münasibətləri sahmana salmaqdan keçdiyini də anlayacaq.

**(ardı 7-ci səhifədə)**

# Qərb Gürcüstanda prezident seçkisinə hansı ssenari ilə gedəcək?

**Gürcüstanda siyasi gərginlik kulminasiya nöqtəsinə çatdı və sındı. Hadisə yerindən reportaj hazırlayan xarici jurnalistlər xəbər verirlər ki, noyabrın 28-dən başlayaraq parlament binasının qarşısında toplaşan etirazçıların sayında dekabrın 5-dən etibarən azalma müşahidə olunur.**



Düzdür, Qərb mediası aksiyaların hələ də şiddətlə davam etdiyini yazır, insanları bu aksiyalara cəlb etmək üçün təşviqat aparırlar. Köhnə çəkilişləri yenidən paylaşaraq izdiham effekti yaratmağa çalışır. Amma reallıq budur ki, sonuncu, sayca 8-ci olan aksiya dekabrın 5-də faktiki olaraq bitib. Dekabrın 5-dən 9-na qədər olan dövrdə epizodik halları nəzərə almasaq, nisbi sakitlik yaranıb. Ən əsası, parlament binası qarşısında aksiyaları gecə saatlarında davam etdirənlərin sayı minimuma enib.

Görünən budur ki, "Gürcü Arzusu" Qərbin təzyiqləri qarşısında duruş gətirə bildi. Ölkənin suverenliyini təhdid edən tələbləri geri çevirməyi bacardı. ABŞ və Avropa İttifaqının intensiv hədələrinə rəğmən, hakim komanda 26 oktyabr seçkilərinin nəticələrini ləğv etmədi. 4 müxalifət partiyasını parlamentə cəlb etmək naminə alçaldıcı sövdələşmələr aparmaqdan yayındı. Səsvermədə qazandığı 54 faizlik seçici üstünlüyünə, xalqın etimadına güvənərək, yeni hökumət kabinetini təkbaşına formalaşdırdı. Əlavə olaraq, Qərbin sanksiya təhdidlərinə cavab olaraq, noyabrın 28-də bəyanat yayaraq, Avropa İttifaqına üzvlüklə bağlı danışıqları özü dondurdu. Baş nazir İrakli Kobaxidze Avropadan "ləyaqətlə, ədalətlə və şantaj olmadan aparılan danışıqlar" tələb etdi.

**(ardı 5-ci səhifədə)**



# Quruda ilk üfüqi quyu qazılacaq

Səhifə ⇨ 9



# Nankorluq gözləri bağlayanda...

Səhifə ⇨ 4

# Biləsuvar və Neftçalada da günəş enerjisi stansiyaları tikilir

Səhifə ⇨ 8

# Post-Əsəd dövrü Suriyaya nə vəd edir?

**Hökumət əleyhinə qüvvələrin zərbələri altında Suriyada hakimiyyət devrildi. Suriya ordusunun yaraqlıların irəliləməsinə müqavimət göstərməkdən imtina etməsindən sonra prezident Bəşər Əsədin Moskvada sığınacaq tapdığı məlum oldu. Amma Suriya savaşı bitmədi, strateji bölgəyə nəzarət uğrunda mübarizə yeni müstəviyə keçdi. Dünyanın müxtəlif paytaxtlarından səsləndirilən bəyanatlardan belə qənaətə gəlmək olur ki, Suriyada nüfuz bölgüsü uğrunda aparılacaq mübarizə heç də asan keçməyəcək.**

**(ardı 10-cu səhifədə)**



# “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 57-VIIQD nömrəli Qanununun tətbiqi və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 57-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 17.1-ci (hər iki halda) və 17.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 17.1-ci maddəsində birinci halda “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur:

1.2.1. qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə (o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən digər qeyri-kommersiya qurumlarına münasibətdə Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi;

1.2.2. kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidməti;

1.2.3. dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi;

1.3. həmin Qanunun 17.1-ci maddəsində ikinci halda “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur:

1.3.1. qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, siyasi partiyalara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası;

1.3.2. kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə və publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;

1.4. həmin Qanunun 17.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 57-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228 (Cild I); 2024, № 7, maddə 789) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə “15.9.1-2-ci” sözlərindən sonra “, 17.1-ci (hər iki halda) və 17.2-ci” sözləri əlavə edilsin;

3.2. 2.4-cü bənd üzrə:

3.2.1. birinci abzasdan “17-ci maddəsində (birinci halda),” sözləri çıxarılsın və həmin abzasa “keçirirlər” sözündən sonra “və həmin Qanunun 17.1-ci maddəsində birinci halda “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur” sözləri əlavə edilsin;

3.2.2. 2.4.1-ci yarımbənddə “münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və onun rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla,” sözləri “(o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalara və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinə) münasibətdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən” sözləri ilə əvəz edilsin;

3.2.3. 2.4.2-ci yarımbənddən “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında” sözləri çıxarılsın;

3.3. 2.9-cu bənddən “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında” sözləri çıxarılsın;

3.4. 2.14-1-ci bənd üzrə:

3.4.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

“2.14-1. həmin Qanunun 17.1-ci maddəsində ikinci halda “orqan (qurum)” dedikdə aşağıdakılar nəzərdə tutulur:”;

3.4.2. 2.14-1.1-ci yarımbənddə ikinci halda “Nazirliyi” sözündən sonra “, siyasi partiyalara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası” sözləri əlavə edilsin;

3.5. aşağıdakı məzmunda 2.14-2-ci bənd əlavə edilsin:

“2.14-2. həmin Qanunun 17.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 9 dekabr 2024-cü il**

# “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”ə düzəliş Protokolu”nun təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il sentyabrın 3-də Buxarest şəhərində imzalanmış “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”ə düzəliş Protokolu” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Protokol qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan, Rumıniya və Macarıstan Hökumətlərinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 9 dekabr 2024-cü il**

# Mərkəzi Seçki Komissiyasının iclası



**Dekabrın 9-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın dekabrın 2-də keçirilən iclasının protokolu təsdiq edilib. Sonra bəzi seçki dairələri üzrə seçki məntəqələrinin yaradılmasına dair məsələyə baxılıb. Komissiya seçicilərin sayının artım dinamikası ilə əlaqədar olaraq, seçicilər üçün maksimum əlverişli şəraitin təmin edilməsinin zəruriliyini, habelə yerli və digər şəraiti də nəzərə almaqla, 1 saylı Şərur-Sədərək və 68 saylı Sabirabad-Şirvan seçki dairələrinin hüdudları daxilində yeni seçki məntəqələrinin yaradılması və məntəqə seçki komissiyalarının təşkilinə qərar verib.

İclasda daha sonra 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Böyük Quruluş Partiyası, Demokratik İslahatlar Partiyası və Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Komissiya üzvlərinə hər bir siyasi partiyanın MSK-ya müvafiq müraciəti barədə ayrı-ayrılıqda məlumat verilib və sözügedən siyasi partiyalar tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

Media mənsubları tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

**XQ**



# Müdafiə naziri türkiyəli həmkarına başsağlığı verib

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin milli müdafiə naziri Yaşar Gülərə başsağlığı ünvanlayıb.**

Başsağlığında deyilir: “Dekabrın 9-da İsparta vilayətində təlim uçuşu zamanı UH-1 tipli helikopterin qəzaya uğraması nəticəsində altı hərbi qulluqçunun şəhid olması barədə xəbər məni dərindən kədərləndirdi. Sizin acınız bizim də acımızdır.

Baş vermiş qəzada şəhid olmuş qəhrəman türk hərbçilərinə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!”**

**XQ**

# İsrail Prezidenti İsaak Hersoq Hikmət Hacıyevi qəbul edib



**İsrail Prezidenti İsaak Hersoq Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevi qəbul edib.**

Bu barədə İsrailin Azərbaycandakı səfirliyinin "X" hesabında paylaşım edilib.

Bildirilib ki, Prezidentin köməkçisi İsaak Hersoqa Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırıb. İsrail Prezidenti isə öz növbəsində minnətdarlığını bildirib və onun da salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Görüş zamanı Azərbaycan və İsrail arasında ikitərəfli əməkdaşlıq məsələləri, o cümlədən, regional məsələlər müzakirə edilib.

*

**Həmin gün Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İsrailin Xarici İşlər naziri Gideon Saar ilə regional gündəliyi müzakirə edib.**

Bu barədə İsrail XİN-in Avrasiya və Qərbi Balkan şöbəsinin rəhbəri Liat Vekselman "X" sosial şəbəkəsindəki hesabında məlumat verib. L.Vekselman qeyd edib ki, tərəflər Yaxın Şərq və Qafqaz regionunda cərəyan edən son hadisələri, regional təhlükəsizliyi və İsraillə Azərbaycan arasında ikitərəfli möhkəm münasibətləri müzakirə ediblər.

**XQ**

# XİN-in məlumatı

**Dekabrın 9-da Xarici İşlər naziri Ceyhun Bayramov ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının yeni təyin olunmuş baş katibi Feridun Hadi Sinirlioğlu arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Ceyhun Bayramov Türkiyə Xarici İşlər Nazirliyində böyük diplomatik təcrübəyə malik səfir Feridun Sinirlioğlunun yekdilliklə ATƏT-in baş katibi təyin olunması münasibətilə səmimi təbriklərini çatdırıb, onun bu əhəmiyyətli fəaliyyətində davamlı uğurlar arzulayıb. Azərbaycanın ATƏT ilə əməkdaşlığa verdiyi önəm baş katibin diqqətinə çatdırılıb.

Tərəflər ATƏT çərçivəsində əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri və perspektivləri üzrə fikir mübadiləsi aparıblar.




*

**Dekabrın 9-da Ər-Riyad şəhərində Azərbaycanın və Səudiyyə Ərəbistanının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin üçüncü raundu keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildirilib ki, Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Səudiyyə Ərəbistanı nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Valid Əl-Xureyci rəhbərlik ediblər.

Görüşdə iki ölkə arasında əlaqələrin gücləndirilməsi, siyasi, iqtisadi, energetika və humanitar sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Bu ilin noyabrında Azərbaycanın ev sahibliyi etdiyi COP29-un iki ölkə arasında mövcud əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığı bildirilib.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb, qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsi razılaşdırılıb.

Postmünaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycan tərəfindən davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi və orada həyata keçirilən bərpa-quruculuq işləri barədə qarşı tərəfə ətraflı məlumat verilib.

Görüşdə turizm, yaşıl enerji və investisiya qoyuluşu sahələrində əməkdaşlığın inkişafı üçün geniş potensialın olduğu vurğulanıb.

Siyasi məsləhətləşmələr zamanı, həmçinin regional, beynəlxalq məsələlər və bir sıra maraq daşıyan digər mövzular da müzakirə olunub.

Səfər çərçivəsində Y.Rəfiyev, həmçinin Səudiyyə Ərəbistanı Krallığının enerji nazirinin davamlılıq və iqlim dəyişikliyi üzrə müavini Xalid Əl-Mehaid ilə görüşüb.

**XQ**

# Qırğızıstandakı səfirliyimizdə Ulu öndərin büstünün açılışı



**Azərbaycanın Qırğızıstandakı səfirliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün açılışı olub.**

Açılışda Qazaxıstanın səfiri Rapil Joşıbayev, Özbəkistanın səfiri Saidikram Niyazxocayev, Tacikistanın səfiri Alizoda Nazirmad, Belarusun səfiri Sergey Molunov, Qırğızıstan Xalqları Assambleyası Şurasının sədri Almambet Matubraimov, Qırğız Yazıçılar Birliyinin sədri Kanıbek İmanaliyev, Heydər Əliyev adına Məktəbin direktoru Kanıkey Alımkulova iştirak ediblər.

Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov ulu öndər Heydər Əliyevin xatirəsinin azərbaycanlıların qəlbində ildən-ilə daha da möhkəmləndiyini söyləyib.

“1990-cı illərdə və 2000-ci illərin əvvəllərində o, sabitliyə nail oldu. Bu sabitlik sayəsində biz iqtisadi cəhətdən inkişaf edə bildik, eyni zamanda, hərbi-siyasi potensialımızı gücləndirə bildik. Heç kim inanmayanda Heydər Əliyev inanırdı ki, biz işğal olunmuş əraziləri azad edəcəyik. O, bu inamı xalqımızın qəlbinə saldı. Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin Qarabağı azad etmək vəsiyyətini yerinə yetirdi”, – deyə səfir qeyd edib.

**XQ**

İlk dəfə XQ-də

# "Heydər Əliyev Kolbinin təyinatına qəti etiraz etdi"

*Kremldə Heydər Əliyevin köməkçisi işləmiş Camal Camalov o dövrlə bağlı xatirələrini ilk dəfə "Xalq qəzeti"nə danışır*



(əvvəli qəzetin 7 dekabr sayında)

**– Yeqor Liqaçovun xarakterindəki dözümsüzlük özünü necə büruzə verirdi?**

– Heydər Əliyev ağılla, nəzakətlə rəftar edir, təmkinlə danışır, müsahibini diqqətlə dinləyir, rütbəsinə baxmayaraq hamı ilə mədəni davranırdı. Liqaçov isə qaynar qazan kimi idi. Heç nədən çığırıb-bağırmağa başlayır, kobudluq edir, bəzən hətta müsahibini təhqirə də keçirdi. Aralarındakı fərq çox böyük idi.

Ümumiyyətlə, "yuxarıdakı saray oyunları" daha mürəkkəb olur. Yenə Smirtyukovun müsahibələrinə istinad edəcəyəm. Jurnalist Jirnovun "Tixonov (SSRİ Nazirlər Sovetinin sabiq sədri – C.S.) Qorbaçovun hakimiyyətə gəlməsinə mane olmağa cəhd göstərdimi?" – sualına Smirtyukov belə cavab verib: – O istəsə də buna gücü çatmazdı. Bilirəm ki, Qromıko onu bu məsələdə bir az fəal olmağa çağırırdı. Ustinov və Andropov vəfat etdikdən sonra Qromıko özünə müttəfiq axtarırdı və Tixonova telefonda eyham vurub ki, indi ölkəyə lazım olan adam Qorbaçov deyil. Tixonov razı olmadı deyə, Qromıko Qorbaçovun tərəfinə keçdi.

Qorbaçov "köhnə qvardiyanın" təmsilçiləri ilə kobud rəftar edirdi. Məsələn, onun əmri ilə boşaldılmalı olan "dövlət daçası"ndan Kirilenkonu ağır xəstə ikən xərəkdə çıxarmışdılar. Tixonova qarşı bir az mərhəmətli davranmışdı. Çünki Tixonov özü üçün heç nə istəməmişdi. Hələ sədr müavini olanda aldığı üçotaqlı mənzildə həyat yoldaşı ilə ömrünün sonuna qədər yaşadı. Uşaqları yox idi və çox sadə yaşayırdılar. Sabiq baş nazir kimi dövlətin verdiyi bağı, mühafizəni və fərdi təqaüdünü saxlamışdılar. Amma SSRİ dağılandan sonra onun vəziyyəti daha da pisləşdi. Fərdi təqaüd ləğv olundu və o, sadəcə, qocalığa görə pensiya almağa başladı. Heç bir əmlakı, sərvəti, əmanəti yox idi. Ər-arvad bütün pullarını pioner düşərgələri və məktəblər üçün avtobus almağa sərf etmişdilər. Ömrünün sonuna yaxın mühafizəçiləri pul toplayıb ona meyvə-tərəvəz alırdılar...

Heydər Əliyevlə Qorbaçov arasında gərginlik yaradan səbəblərdən biri də Qazaxıstan KP MK-nın o vaxtkı birinci katibi Dinməhəmməd Əhmədoviç Kunayevlə bağlı olmuşdu. Yadımdadır, 1984-cü ilin dekabrında bir gün qapı açıldı və Kunayev yanında bəstəboy bir adamla içəri girdi. D.Kunayev də Siyasi Büronun üzvü idi, ona görə birbaşa içəri keçdi, yanındakı adam isə mənim yanımda bir müddət gözləməli oldu. Tanış olduq. Nursultan Nazarbayev idi. Dedi ki, məni Qazaxıstan Nazirlər Sovetinin Sədri qoymaq istəyirlər, ona görə Heydər Əliyevlə tanış olmağa gətiriblər. Onun təyinatından az sonra Qorbaçov hakimiyyətə gəldi və bütün yaşlı kadrları dəyişməyə başladı. O, Kunayevin yerinə Kolbini təklif etdi. Heydər Əliyev buna qəti etiraz etdi ki, bu təyinat doğru deyil. Amma Qorbaçov Heydər Əliyevin xəbərdarlığını nəzərə almadı. Üstündən iki il keçmədi ki, SSRİ ərazisində milli zəmində ilk toqquşma məhz Qazaxıstanda baş verdi. Zəncirvari reaksiya ta SSRİ-nin dağılmasına qədər gedib çıxdı. Bu məsələdə də Heydər Əliyevin üzaqgörənliyini tarix sübuta yetirdi.

Heydər Əliyevin xeyirxah xidmətlərini lazımınca qiymətləndirməyənlər də az olmayıb. Bir gün H.Əliyev mənə dedi ki, Əbdürrəhman Vəzirov zəng edəcək, ona buraxılış vərəqi sifariş et, sonra yanıma gətir. O, zəng vurdu, mən giriş üçün sənəd hazırladım və Vəzirov gəldi. H.Əliyevin yanında müşavirə vardı və bir müddət Vəzirov mənim yanımda gözləməli oldu. Özü söhbətə başladı və dedi ki, mən SSRİ-nin Nepaldakı səfiriyəm. Pakistanda səfir yeri boşalıb, Heydər Əliyevdən oraya keçirilməyimə yardımçı olmasını xahiş edəcəyəm. O vaxt, elə indi də belə məsələlər telefonla həll olunmurdu və olunmur. O görüşün ertəsi günü Heydər Əliyev şəxsən Anatoli İvanoviç Lukyanovun yanına getdi və Ə.Vəzirovu SSRİ-nin Pakistanda fövqəladə və səlahiyyətli səfiri təyin etdirdi. Yəni, onun Pakistana səfir təyin olunması Heydər Əliyevin sayəsində mümkün oldu.

**– Heydər Əliyev Siyasi Büro üzvü olduğu müddətdə fövqəladə hadisələrlə bağlı yaradılan dövlət komissiyalarına rəhbərlik edirdi...**

– 1984-cü ildə Heydər Əliyev ən məsuliyyətli və çətin bir komissiyaya – operativ məsələlər komissiyasına rəhbər təyin edildi. Adətən, belə komissiyalara Nazirlər Sovetinin Sədri başçılıq edirdi. O vaxt Tixonov yaşlı olduğuna görə, komissiyaya sədrliyi H.Əliyevə həvalə etmişdilər. Komissiyanın rəhbəri kimi dəfələrlə Qorbaçovla təmasda olurdu. Çünki artıq partiya strukturunda Qorbaçov ikinci adam idi. Hər məsələdə Qorbaçovla danışıb problemin məğzini izah edirdi. Sovet İttifaqı iqtisadiyyatının ən ağır məsələlərinin həlli səlahiyyəti H.Əliyevin üzərində idi. Təkcə iqtisadiyyat məsələləri deyil, demək olar ki, Nazirlər Sovetinə aid olan ən məsul sahələrə də cavab verirdi. Nazirlər Sovetinin rəhbərliyində, o, hamıdan cavan idi. Bir maraqlı nüans da o idi ki, 1983-cü ilin mayında Heydər Əliyevə Sosalist Əməyi Qəhrəmanı fəxri adı verildi və ikinci "Qızıl ulduz"la təltif olundu. Ona qədər ikinci "Qızıl ulduz" təkcə Tixonovda vardı. Bu mükafatı ona 1982-ci ilin oktyabrında şəxsən Leonid Brejnev təqdim etmişdi. H.Əliyevə qarşı qısqanclığın bir səbəbi də bu ola bilərdi.

N.Tixonovun iş qabiliyyəti bütün məsələləri əhatə etmək üçün kifayət deyildi. Əksəriyyətin etiraf etdiyi kimi, aparata Tixonovdan əvvəlki sədrin – səriştəli və savadlı Aleksey Nikolayeviç Kosıginin iş üslubuna yaxın üslubu gətirən Heydər Əliyev oldu. Onun gəlişi kabinetdə canlanma yaratmışdı. Kosıgin Stalin məktəbinin kadrı idi və o vaxtkı iş üslubunu yaxşı mənimsəmişdi. H.Əliyevin də işə məsuliyyət və tələbkarlıqla yanaşma tərzi buna çox yaxın idi. Bütün müşavirələrə, hətta qısamüddətli görüşlərə çox ciddi yanaşırdı. Müşavirədən əvvəl özü ciddi hazırlaşır, gündəliyi aidiyyəti nazirliklə, idarə rəhbərləri ilə, aparatın əməkdaşları ilə xırda detallara qədər incələyir, qəbul olunacaq qərarları öncədən müzakirə edirdi ki, müşavirə zamanı tələsik və düşünülməmiş qərarlar verilməsin. Hər çıxışa diqqətlə qulaq asır, hamının fikir söyləməsinə imkan yaradırdı. Mənim fikrimcə, Heydər Əliyev, heç olmasa, Nazirlər Sovetinin Sədri olsaydı, hadisələr başqa cür cərəyan edərdi.

**– Yəni, onda SSRİ də dağılmazdı?**

– Belə tezliklə, yox... Bunu SSRİ sevdalısı kimi nostalgiya üçün demirəm. Nəticə etibarilə operativ komissiyaya rəhbərlik etmək Heydər Əliyevin sağlamlığına mənfi təsir etdi. Dediyim kimi, Ulyanovsk yaxınlığındakı qəza, Novorossiysk yaxınlığında gəmilərin toqquşması ağır fəlakətlər idi. ("Admiral Naximov" sərnişin gəmisi ilə "Pyotr Vasyov" yük gəmisi 1986-cı il avqustun 31-də Novorossiysk şəhərinin 13 kilometrliyində toqquşması hər iki gəmi kapitanının səhvi nəticəsində baş vermiş və 422 adamın həlak olması ilə nəticələnmişdi. Kapitanların ikisi də sağ qalmış və 15 il müddətinə azadlıqdan məhrum edilmişdilər. – C.S.). Bu, ağlasığmaz bir faciə idi. Həmin faciə zamanı ölkə başçısı hadisə yerinə getmədi, amma öz adamını orada nümayəndə kimi qoymuşdu və baş verən hadisələr haqqında hər gün məlumat alırdı. Qorbaçov hadisə barəsində mətbuatda xəbər verilməsini istəmirdi. H.Əliyev israr etdi ki, bu, bütün ölkə üçün ağır faciədir və bunu gizlətmək olmaz. Onun sayəsində qəza və onun səbəbləri barədə mətbuatda müntəzəm məlumatlar verildi.

Heydər Əliyev sentyabr ayında 18 gün Novorossiyskdə oldu, həlak olanların hamısının yaxınları ilə görüşdü. Mənim fikrimcə, Sovet İttifaqına onun qədər sadiq adam təsəvvür etmək çətin idi. O, həmin qəzada günahkarları müəyyən edib cəzalandırmaq, zərərçəkənlərin tələblərinə cavab vermək üçün əlindən gələni etdi. Dörd yüzdən çox adamın həlak olduğu Novorossiysk gəmi qəzasında təqsirkar olan kapitanlardan birinin oğlu bir gün Heydər Əliyevin qəbuluna gəlib atasının xəstəliyindən danışaraq ona güzəşt olunmasını xahiş etdi. Heydər Əliyev onu sona qədər səbrlə dinlədi və dedi ki, sən mənə kim olduğunu dedin, amma buradan çıxanda heç kimə bunu demə, yoxsa səni linç edərlər və nə qədər ki, gec deyil, bu şəhərdən get. Hətta mühafizəçilərə də göstəriş verdi ki, onun təhlükəsiz gedişini təmin etsinlər.






**Haşiyə.** *"Admiral Naximov" gəmisinin qəzasının təhqiqatı ilə bağlı dövlət komissiyasına rəhbərlik edən Heydər Əliyev haqqında SSRİ Hərbi Dəniz Donanmasının baş komandanı, SSRİ müdafiə nazirinin müavini, vaxtilə Bakı Ali Hərbi Dənizçilik məktəbini bitirmiş admiral Vladimir Nikolayeviç Çernavin Ali Sovetin Rəyasət Heyətində çalışan Leyla xanım Dadaşova ilə söhbətində çox heyranlıqla danışırdı. O deyirdi ki, komissiyanın fəaliyyətinin nəticələri və qəza ilə bağlı keçirdiyi geniş müşavirədə Heydər Əliyev yüksək hərbi komandanlıq korpusunun qarşısında iki saatdan çox kağıza, yazıya baxmadan əsaslı dəlillərlə, rəqəmlərlə elə çıxış etdi ki, erudisiyası, natiqliyi, məntiqi və yaddaşı ilə hamının rəğbətini qazandı. O, haqqında söhbət etdiyi bütün sahələr üzrə peşəkar mütəxəssisdir.*

## BAM

**– Heydər Əliyevin fəaliyyətində o vaxt "əsrin tikintisi" deyilən Baykal–Amur magistralı (BAM) xüsusi yer tuturdu. Bu barədə nə demək istərdiniz?**

– Bu günlərdə Rusiyanın Yakutiyada Lena çayı üzərindən keçən dəmir yolu körpüsünün layihəsinin təsdiq etdiyi barədə material oxudum. Hətta materialın surətini də çıxarmışam. İndi gündəmə gələn körpü və ümumiyyətlə, BAM-la bağlı maraqlı xatirələrim var. Bu magistralın inşası da Heydər Əliyevin nəzarətində idi. 1984-cü ilin yay və payızında, o, magistralın tamamlanması işlərinə nəzarət etmək üçün uzun müddət inşaat sahələrində oldu. 1984-cü ilin sonuna yaxın BAM-ın inkişafı haqqında Mərkəzi Komitə üçün məruzə hazırladı.

1985-ci ilin fevral ayı idi. Çernenko xəstəxanada yatırdı. Bir gün Çernenko telefonla zəng etdi. Həmin vaxt Heydər Əliyev Leninin anadan olmasının növbəti yubileyində –115 illiyində çıxış etmək üçün məruzə hazırlayırdı. Bilirsiniz, o vaxt hər beş ildən bir İttifaqlar Sarayının sütunlu salonunda təntənəli yubiley tədbirləri keçirilirdi. Təxminən bir il əvvəldən qəbul olunmuş qərara görə, əsas məruzəçi Heydər Əliyev idi. Sov.İKP MK-nın Baş katibi Çernenko ilə Nazirlər Sovetinin Sədri Tixonovun birbaşa telefonlarından başqa bütün telefonlara baxmağı mənə həvalə etmişdi ki, ona mane olmasınlar. Çernenko isə "ATS-2" ilə zəng etdi və mən cavab verdim: "Yoldaş Əliyevin katibi Camalov Sizi dinləyir". "Çernenkodur, – dedi. –Heydər Əliyev yerindədirmi?" – Bəli, Konstantin Ustinoviç. "Birləşdir, zəhmət olmasa". Doqquzuncu idarənin əməkdaşı da üzbəüz qarşımda oturub. Bütün danışıqları o da dinləyir və qeyd edirdi. H.Əliyevə məruzə edəndə, o təəccübləndi ki, niyə birbaşa telefonla zəng vurmur. "Xəstəxanada olduğu üçün bəlkə bu telefon daha yaxınındadır" – ehtimalımı söylədim. Heydər Əliyev dəstəyi qaldırdı. Danışdıqdan sonra nəqliyyat üzrə köməkçisini çağırdı və dedi ki, Çernenko Berkakit–Tamout–Yakutsk dəmir yolunun çəkilişi ilə bağlı zəng etmişdi. Fikir verin, qoca kişi ölümündən cəmi iyirmi gün qabaq Yakutska qədər çəkilməli olan dəmir yolu ilə maraqlanırdı.

O söhbətin üstündən 40 il keçib. Rusiya indi yenidən o məsələyə qayıdır. Çünki 1985-ci ildə Qorbaçov hakimiyyətə gəldi və Heydər Əliyevin BAM ilə bağlı bütün planlarını ləğv etdi. Niyəsi məlum deyildi. Əslində, H.Əliyevlə Qorbaçov arasında ilk "toqquşma" da BAM-ın inşası və inkişafı ilə bağlı oldu. Bu qırx ildə BAM tam tənəzzülə uğradı. Halbuki, bu gün də məlumdur ki, ölkə iqtisadiyyatı üçün BAM-ın əhəmiyyəti çox böyükdür. Dövləti mənafe baxımından iki siyasi dövlət xadiminin, – mən hələ Heydər Əliyevi demirəm, – yaşlı Çernenko ilə cavan Qorbaçovun mövqeləri kimin necə düşündüyünün göstəricisi idi...

***Söhbəti qələmə aldı:***
***Cəfər SADIQ***

***Moskva***

# Səfir, yoxsa patrul Dekotini?



**(əvvəli 1-ci səhifədə)**

Fransa səfiri Avropa İttifaqının şərti sərhədin Ermənistan tərəfində keşiş çəkən mülki müşahidə missiyasının qərargahında olub. Bundan başqa, Dekotini missiyanın patrul dəstəsinə də qoşulub. Çox güman, əlində binokl Azərbaycan tərəfini seyr edib. Beləliklə, Aİ müşahidəçilərinin, guya, hansısa əhəmiyyətli iş gerçəkləşdirdiyinə dair görüntü formalaşdırıb, mesaj verib. Bəli, məhz görüntü. Çünki son günlər Aİ-nin missiyası məsələsində görüntü yaratmaq sanki dəbdədir. Səbəb aydındır. Ermənistan hökuməti və Aİ sözügedən missiyanın qalma müddətini artırmaq barədə düşünür. Sərhəd xəttinə son günlər sayı artmaqda olan səfərlər də buna xidmət edir.

Qeyd edək ki, Aİ-nin sözügedən missiyası 2023-cü ilin fevralından fəaliyyətdədir. Təsisatla bağlı qərar isə 2022-ci ilin sonunda qəbul edilib. Əvvəl missiyanın cəmi iki ay müddətinə, özü də məhdud sayda fəaliyyət göstərəcəyi bildirilsə də, sonrada say da, müddət də artırıldı. Hazırda müşahidəçilər NATO-nin Cənubi Qafqazdakı emisarları kimidirlər. Bu məqamı Azərbaycan tərəfi də gözəl bilir və dəfələrlə ölkəmizin rəsmiləri mövcud istiqamətdə bəyanatlar səsləndiriblər. Onlar bildiriblər ki, Bakı və İrəvan arasında birbaşa təmaslar başlayıbsa, sərhədlərin delimitasiyası və demarkasiyası ilə əlaqədar irəliləyişlər əldə olunubsa, deməli, Aİ-nin müşahidəçilərinə heç bir ehtiyac yoxdur.

Ancaq Aİ-nin, eyni zamanda, qurumu alətə çevirmiş Fransanın öz "planları" var. Belə görünür ki, Cənubi Qafqazda sülh gündəmi rəsmi Paris üçün heç bir önəm daşımır. Ona görə, bilavasitə müşahidəçilik institutu üzərinə fokuslanır. Dekotininin missiyanın ofisini ziyarət etməsi və onun üzvləri ilə patrul fəaliyyətinə qoşulması belə söyləməyə əsas verir.

Ayrıca onu da bildirək ki, Dekotininin şəxsində Fransa, bütövlükdə, Ermənistanın sərhədi məsələsi üzərinə fokuslanır. Bu fokuslanma ölkəni Azərbaycandan, daha doğrusu, "Azərbaycanın təcavüzündən" qorumaq amalına köklənib. Yox, elə zənn etməyin avropalılar sadəlövhdürlər. Onlar yaxşı başa düşürlər ki, Ermənistanı qorumaq üçün silah lazımdır. Nəzərə alsaq ki, missiya peşəkar hərbçilərdən təşkil olunub, təsisatın, faktiki olaraq, müharibə hazırlığı gerçəkləşdirdiyini söyləyə bilərik. Baxmayaraq ki, Azərbaycan Ermənistan ərazisinə hücum planlaşdırmadığını dəfələrlə bəyan edib.

Görəsən, nə üçün Ermənistanın qorunması ritorikası var? Səbəb çox sadədir. Ermənistan məqsədli şəkildə sülh yolundan uzaqlaşdırılırsa, silahlandırılırsa və Azərbaycana qarşı münaqişəyə hazırlaşdırılırsa, onun qorunması məsələsi də aktuallığını saxlamalıdır və saxlayır da. Ona görə beynəlxalq miqyasda anti-Azərbaycan təbliğatı aparılır, ölkəmizin gözdən salınması istiqamətində cəhdlər göstərilir. Cəhdlər göstərilir ki, rəsmi Bakının İrəvanın mümkün təxribatlarına qarşı cavab tədbirləri işğalçılıq kimi qiymətləndirilsin. Həmişə də belə olub.

...Rəsmi Paris bütün potensialını işə salaraq, xaricdən Ermənistana yollanan diplomatların, ictimai xadimlərin sərhəd zonasına səfərlərini təşkil edir. Daha doğrusu, mövcud istiqamətdə baş nazir Nikol Paşinyanın administrasiyasına direktivlər verir. Rəsmi İrəvan isə can-başla həmin direktivlərin icrasına girişir. Bir müddət öncə Ermənistanda səfərdə olan Polşa Prezidenti Anjey Duda da sərhəd missiyasının qərargahında olmuşdu. Yəni, o da Aİ-nin və Fransanın timsalında Qərbin Ermənistanı qoruma kampaniyasında iştirakını bildirmişdi.

Onu da deyək ki, Fransada "Overn-Rona-Alp"–Ermənistan-Sünik" tədbirləri keçirilməkdədir. Bunun özü də Ermənistanın müdafiəsinə ictimai diqqəti artırmağa yönəlmiş aksiyadır. Nəzərə alaq ki, Sünik Azərbaycanın Zəngəzur dəhlizi ideyasının gerçəkləşmə nöqtəsidir. O dəhlizin ki, Naxçıvana yolu təmin edəcək. Naxçıvana yol Qərbə Türkiyə vasitəsilə açılım deməkdir. Ermənistan "Dünyanın kəsişməsi" ideyasını ortaya atmaqla, sözügedən açılımın önündə, bir növ, bloqpost yaratmağı düşünür. Məhz buna görə də Ermənistanın qorunması və bununla bağlı Aİ-nin sərhəd missiyasının əlahiddəliyi aşılanır.

Əminliklə deyə bilərik ki, Ermənistanın qorunması, onun Cənubi Qafqaz üzrə qlobal rəqabətin "günah keçisi"nə çevrilməsi fonunda özünü göstərən qatı ermənipərəstlik Fransanın ictimai rəyində pataloji xəstəlik halını alıb. Dekotininin hərəkəti həmin xəstəlikdəki yalnız bir elementdir. Ancaq başqa fraqmentlər də var. Məsələn, bir müddət əvvəl Fransa parlamentinin deputatı Loran Vokye haqqında söz açdığımız "Overn-Rona-Alp"–Ermənistan-Sünik" tədbirləri çərçivəsində Lionda keçirilmiş aksiya zamanı bildirmişdi ki, Ermənistan uğrunda mübarizə XXI əsrin sivilizasiyası naminə mübarizə aparmaqdır.

Sonda yazının əvvəlində diqqətə çatdırdığımız bir fikrə yenidən qayıdaq. Ermənistan yoxdursa, onun sərhədi də olmayacaq. Bu gün Fransa başda olmaqla, Qərbin bir sıra dairələri Ermənistanın bir dövlət kimi, ya vəlvələdən, ya da zəlzələdən yaranmış mövcudluğunu aradan qaldırmaq üçün var gücləri ilə çalışmaqdadırlar. Baş nazir N.Paşinyan çox tez-tez "Real Ermənistan" formulundan danışır və bu yolla ölkəsinin hazırda olmayan sərhədləri çərçivəsində dövlətə sahiblənməyinin zəruriliyini əsaslandırır. Ancaq reallıq budur ki, rəsmi Paris və ümumiyyətlə Aİ həm də özünün missiya məntiqi ilə ölkəni sərhədsiz duruma gətirir, onu nəzarətdənkənar bir bölgə statusunda canlandırır. Bu isə son dərəcə təhlükəlidir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Nankorluq gözləri bağlayanda...

## *Parisdə Notr-Dam kilsəsinin açılışı ilə bağlı bəzi qeydlər*

**Ermənistanın baş naziri Nikol Paşinyan əlinə düşən hər fürsətdəcə Fransaya yollanır. 2 ay əvvəl də orada idi, indi də. Nikolun Fransaya bu il daha bir səfəri isə fevralda reallaşmışdı. İndi Paşinyan Parisə məşhur Notr-Dam kilsəsinin bərpadan sonra açılışında iştirak etmək üçün gedib. Heç şübhəsiz, məqsədi özünü xristian dünyasına göstərməkdir. Əlbəttə, bu təşəbbüs təkcə onun deyil, eyni zamanda, Fransa Prezidenti Emmanuel Makronundur. Makronun başqa məqsədləri də var...**



Qeyd edək ki, Notr-Dam kilsəsinə 2019-cu ildə yanğın nəticəsində ciddi ziyan dəymişdi və indi bərpa olunub. Fransa hakimiyyəti isə dini məbədin açılışını həm də siyasi don geyindirib. Tədbirdə 50-yə yaxın dövlət və hökumət başçısının iştirakı bunu söyləməyə əsas verir. Yeri gəlmişkən, ABŞ-nin yeni seçilmiş Prezidenti Donald Tramp da açılışda iştirak edib. Nəzərə alsaq ki, Fransa Prezidenti E. Makron özü ilə birgə Paşinyanın da Trampla şəkil çəkdirməsinə nail olub. Məsələni Makronun Nikolu Birləşmiş Ştatların yeni dövlət başçısına təqdim etməsi kimi dəyərləndirmək də mümkündür. Hərçənd, Trampın ilk prezidentliyi zamanı da Paşinyanın onun həndəvərində dolaşdığını yada sala bilərik. Nə isə söhbətimiz bu barədə deyil. Həm də ona görə ki, Nikolun harada və kiminlə oturub-durmasının Ermənistana heç bir xeyri yoxdur. Eləcə də Makronun tərəfkeşliyi rəsmi İrəvana hansısa fayda vermir.

Bəli, Makronun dünyadakı nüfuzu, yumşaq desək, arzuolunmaz vəziyyətdədir. Ermənistana görə durum lap pisləşib. Ən əsası isə Fransa dövlət başçısının ermənipərəst təəssübü nəticəsində Parisin Bakı ilə münasibətlərində indiyədək görünməmiş dərəcədə soyuqluq yaradıb. Hətta, diplomatik əlaqələrin tamamilə aradan qalxması kimi xoşagəlməz durum var. Halbuki, müstəqilliyimizi əldə etdikdən sonra Fransa yaxın münasibət saxladığımız Qərb dövlətlərindən idi. Baxmayaraq ki, bu ölkədə erməni lobbi və diaspor təşkilatları hər zaman aktiv olmuşlar.

Makrondan fərqli olaraq, Fransa iqtidarının əvvəlki təmsilçiləri hadisə və proseslərə rasional yanaşır, ölkənin maraq və mənafelərinin qorunması məsələsinə geniş aspektdən qiymət verirdilər. Bakı da hər zaman Parisə obyektiv reallıqları nəzərə alaraq yanaşırdı. Yəni, ölkəmizin rəhbərliyi erməni amilinin Fransa üçün ya vəlvələdən, ya zəlzədən meydana çıxmış önəmlilik faktorunu münasibətlərə maneə yaradan durum olaraq görmürdü. Nəticə etibarilə, Azərbaycan–Fransa əməkdaşlığında müəyyən balans gözlənilirdi. Hər şeyi alt-üst edən məhz Makron oldu və yenə köhnə ampluasında qalır.

Söhbət Notr-Dam kilsəsindən düşmüşkən, Heydər Əliyev Fondunun Strasburqdakı Notr-Dam kilsəsinin təmirinə göstərdiyi maliyyə dəstəyini xatırladaq. Həmin vaxt, yəni 2009-cu ildə Fransanın nüfuzlu mətbu orqanları bu barədə geniş məqalələr yayımlamış, Heydər Əliyev Fondunun dəstəyini yüksək qiymətləndirmişdilər. Nəzərə alaq ki, fondun Fransanın mədəni və tarixi abidələrinin bərpasına göstərdiyi yardım daha əvvəldən, yəni 2007-ci ildən başlamışdı. Qurum Versal sarayında iki abidəni təmir etdirmişdi. Ölkənin "Frans-3" televiziya kanalının və digər nəşrlərinin təqdimatlarında Heydər Əliyev Fondunun Azərbaycandan çox-çox uzaqlarda, Fransada iki abidənin və bir kilsənin təmirinə yardım etməsinin fondun prezidenti Mehriban xanım Əliyevanın tarixi abidələrə qayğısından irəli gəldiyi vurğulanmış, nümunə kimi göstərilmişdi.

2013-cü ildə fransız jurnalist Regis Gente "Eurasianet" üçün yazdığı məqalədə son 5 il ərzində Azərbaycanın Fransada mədəniyyət layihələri və bərpa işləri üçün 1.25 milyon avrodan çox pul ayırdığını diqqətə çatdırmışdı. O, Heydər Əliyev Fondunun ölkənin Normandiya regionunda yerləşən və orta əsrlərdən qalmış Saint Paterne kilsəsinin bərpasına maliyyə ayırması üzərində də dayanmışdı.

Ümumiyyətlə, Makronun prezidentliyinədək ölkənin media orqanları Azərbaycanın Fransada mədəni abidələrin bərpası ilə əlaqədar göstərdiyi humanitar yardımlar barədə çoxsaylı məqalələr yayımlamışdılar. Məqalələrdə ölkəmizin, xüsusən də Heydər Əliyev Fondunun fəaliyyəti son dərəcə dolğun şəkildə təqdir olunmuşdu. Ən əsası, Azərbaycanın Fransanın mədəni irsinin qorunmasına dəstək işi sistemliliyi və ardıcıllığı ilə vurğulanmışdı. Lakin Makron, əvvəldə də dediyimiz kimi, hər şeyi alt-üst etdi. Nəyə görə? Özünün ambisiyalarına və daxildəki səriştəsizliyini Cənubi Qafqaz müstəvisində aradan qaldırmaq istəklərinə görə. O istəklərə görə ki, Yelisey sarayı onların reallaşmasında Ermənistanı alətə çevirib.

Sonda Parisdəki Notr-Dam kilsəsinin açılışı xüsusunda bir məqamı da vurğulayaq. Yuxarıda əbəs yerə Heydər Əliyev Fondunun timsalında Azərbaycanın Fransada tarixi abidələrin bərpasına ayırdığı maliyyə vəsaitləri barədə söz açmadıq. Bütün bunlar Azərbaycanana məşhur kilsənin açılışında iştirak hüququ verirdi. Lakin Makron administrasiyası bunu da nəzərə almadı. Buna nə ad verək – nankorluq, yoxsa cılızlıq?

***Ə.RÜSTƏMOV***
***XQ***

**Köşə**

# Media kimlərəsə yox, ictimai maraqlara xidmət etməlidir



**Yeganə HACIYEVA,**
**Mətbuat Şurası İdarə Heyətinin üzvü**

**Ən yeni tarixdə medianın mövzu diapazonu bir qədər də genişlənərək cəmiyyətlə dövlət qurumları arasında əlaqələrin qurulması, maraqlar toqquşmasından yaranan münaqişələrin transformasiyası və ya həlli yollarının işıqlandırılması ilə yekunlaşmır. Bu gün media həm də daxili ehtiyacların xarici siyasət və beynəlxalq müstəvilərdə əsaslandırılması ilə lokal və regional təhlükəsizlikdə iştirak edir.**

Media dünya siyasətinə təsir göstərən qeyri-hökumət aktoru kimi yerli və milli auditoriya ilə məhdudlaşmır və qlobal səviyyədə təsirli vasitə kimi çıxış edir. Media həm də daxili və xarici ictimaiyyətin məlumatlandırılması, vətəndaşların manipulyasiyası və beyin yuması, cəmiyyətlərdə yad stereotiplərin formalaşdırılması, kənar ideologiyanın ixrac olunması, bir sözlə, ictimai şüurun dəyişməsi üçün sistemli fəaliyyət göstərir.

Yenilənən dünyada media kənar maraqların müdafiəçisi, yeni ideologiyaların ixracatçısı kimi də geniş kütlələrə yeni, texnoloji diqqətcəlbetmə metodları ilə təsir edə bilir. Cəmiyyətlərə yeni siyasi istiqamətlər inteqrasiyalar və meyillər kimi sırınır. Bu proses dünyanın bütün yerlərində, regional spesifikalar və fərqliliklər əlavə olunmaqla, eyni ssenari və metodlarla keçirilir.

İnternet resursları artıq çoxdan, sadəcə, informasiya daşıyıcısı olmaqdan çıxıb, ünsiyyət formasına, cəmiyyətin mövcudluğuna, onun ayrı-ayrı hissələrini birləşdirən zəruri platformaya transformasiya olunub. Bu platforma isə bu gün həm də cəmiyyət və dövlət arasında kommunikasiyanın təməlini təşkil edir. Kommunikasiya texnologiyaları və infrastrukturları kimi internet resursları da artıq cəmiyyətdə özünəməxsus sosial institutlardır.

Bu gün bütün dünyada sosial institutlar ictimai və mədəni təkamülün siyasi və təhlükəsizlik aspektlərini qabardır, belə qərarları təftiş edir, bəzən təhlükəli ssenariləri qabartmaqla gərginlik və qorxu xofu yaradır, çıxış yolları təqdim edir və s. Artıq bütün dünyada internet infrastrukturları kənar təsir ruporu və platforması rolunu oynayır.

Məsələn, maraqlı ölkələrdə 24 saat dayanmayan əks-təbliğatla "narazı kütlə" formalaşdırılır. Ardınca bu qıcıqlandırılmış kütlənin narazı enerjisi yönləndirilməklə, yad, gerçəkliyə heç bir dəxli olmayan psevdoreallıq formalaşdırılır və s. Azərbaycana qarşı bu sistem fəal tətbiq olunur.

Son illər ölkədə media institutları və infrastrukturlarının maliyyə hesabatlığı, şəffaf fəaliyyəti üçün mütərəqqi qanunvericilik normaları müəyyənləşdirilib. Bu təşəbbüslər öncə ölkədə qeyri-şəffaf şərtlərlə kənar maraq təmsilçisi olan media təsisatları və onların kənar himayəçilərinin planlarını pozdu. Zaman-zaman media təsisatlarının fəaliyyət çərçivəsindən kənara çıxan hallar haqqında məlumatlar yayılır.

Məsələn, Qərb mərkəzlərindən gələn sifarişlər əsasında fəaliyyət qurmaq, aqressiv gündəlik formalaşdırmaq, kənar maraqlara xidmət edən şəxsləri fəallaşdırmaq xüsusilə diqqət çəkir. Ümumiyyətlə, post-sovet ölkələrinin hamısında olduğu kimi, Azərbaycanda da belə şəbəkələrin Qərb ölkələrinin səfirliklərindən təlimatlar alması, bunun müqabilində qrantlara cəlb olunması təcrübəsi mövcuddur. Burada məqsəd həm də qrant və qeyri-qanuni maliyyələşmə ilə həyata keçirilən aktivlərin "nəticələri" olaraq "Azərbaycanda söz azadlığı və demokratiyanın olmaması"na dair tezisi dəstəkləyəcək proseslərə rəvac verməkdir.

Davamlı olaraq bu şəbəkələr Azərbaycanda yaşayan etnik azlıqları "milli azadlıq hərəkatı"na təşviq edən çağrışlar yayır. Bu, əslində, Azərbaycan dövlətinin bütövlüyünə, təhlükəsizliyinə təhdid olan separatizm çağırışlarıdır.

Aprel döyüşləri zamanı, 44 günlük müharibə günlərində, Xankəndidə antiterror tədbirləri keçiriləndə, Azərbaycan əsgəri təcəvüzkar düşmən ordusunun gülləsinə tuş gələndə də belə media təsisatlarında cəmiyyəti çaşdırmağa yönəlik təbliğat yazıları və çaşdırıcı məlumatlar ixrac və tiraj olunurdu.

Azərbaycanda bu şəbəkə strateji gərginlik olan məqamlarda ölkəmiz əleyhinə uydurma materiallar istehsal edir və tirajlayır.

Belə media təsisatlarının əsas məqsədləri, sadəcə, cəmiyyətin sabitliyini və dövlət monolitliyini zədələmək, milli maraqlar ətrafında xalq-dövlət birliyini sarsıtmaqdır. Onlar Azərbaycanı beynəlxalq müstəvidə gözdən salmağa hesablanmış saxta mənbələr, böhtanlar hazırlayırlar.

Bu çirkli mənbələr daha sonra beynəlxalq platformalarda ant-Azərbaycan təşəbbüslərdə istifadə olunan materiallara çevrilir.

# Liderin quruculuq kursu

## VII məqalə

**Mən inanıram, əminəm ki, biz müstəqilliyin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



### Güclü dövlət konteksti

XXI əsrdə Böyük millət quruculuğunun güclü dövlət konteksti prinsipial siyasi, geosiyasi və davamlı inkişaf çalarları vardır. Bu prinsipi bütövlükdə müasir müstəqil dövlətlərin hər birinə aid etmək olar. Məsələnin mahiyyəti onunla bağlıdır ki, XXI əsrdə milli inkişaf, millətin kimliyi kimi məsələlər sıx surətdə milli dövlətin kimliyi ilə bağlıdır. Bu aspektdə siyasi, milli və dövlət identiklikləri vəhdət təşkil edir. Həmin anlayışların məna və məqsədcə bir-biri ilə yüksək dərəcədə bağlı olması millət anlayışına da fərqli yanaşma ehtiyacını ortaya qoymuşdur.

Bu baxımdan Azərbaycanda Böyük millət quruculuğu prosesi milli, regional və qlobal şərtlərin sintezində aparılır. Öncəki tarixi mərhələlərdən fərqli olaraq öncə millət quruculuğu sonra dövlət və ya geosiyasi status, iqtisadi, hərbi və s. güc məsələsini qoymaq artıq fayda vermir. Cəmiyyətlə dövlətin bir-birini şərtləndirərək və motivə edərək vahid sistem kimi birgə inkişafı zərurətdir.

Çox əhəmiyyətlidir ki, XX əsrin 90-cı illərində Heydər Əliyev məsələni məhz bu kontekstdə qoymuşdur. O dövrdə Ulu öndər güclü dövlət konseptini faktiki olaraq cəmiyyətin yeniləşməsi və milli ideyanın həyata keçməsi fonunda formalaşdırmışdır. Bu, özünün konkret ifadəsini milli ideyanın mərkəzinə dövlətin əsas atributlarından olan ərazi bütövlüyü və suverenliyin təmininin gətirilməsində tapmışdır. Yəni güclü dövlət konseptinin əsas şərtlərindən biri milli ideyanın dövlət atributlarının reallaşmasını təmin etməsi ilə bağlıdır. Bu şərti müstəqil dövlət quruculuğunda dövlətin gücünün mənbəyinə millətin ideyası, mənəviyyatı və iradəsinin qoyulması kimi qəbul etmək olar. Bizcə, bu, çox mühüm faktordur.

Digər cəhət iqtisadi gücün təminidir. Bu istiqamətdə 1993-cü ildən başlayaraq, konkret hədəfə uyğun siyasət aparılır. Onun başlıca əlamətləri yeni enerji strategiyasının mərkəzində dayandığı kompleks şəkildə iqtisadi infrastrukturun yaradılmasından ibarətdir. Bu proses "Əsrin müqaviləsi", yeni əməkdaşlıq platformalarının həyata keçməsi və müasir texnologiyaların tətbiqi ilə bağlıdır. Azərbaycan Respublikası iqtisadi gücünü davamlı olaraq artırmaqla qarşısına qoyduğu məqsədə çatmışdır. İndi ölkəmiz regional gücdür. Eyni zamanda, regionlararası miqyasda səmərəli layihələrin təşəbbüskarıdır. Onların reallaşmasında fəal iştirak edir. Enerji sferasında isə Avropanın enerji təhlükəsizliyinin təminatçılarından biridir. Həmin istiqamətdə Azərbaycanın uğurları davam edir. Avropa İttifaqı rəsmiləri Azərbaycanın bu məsələdə rolunu açıq etiraf edirlər.

Nəhayət, güclü dövlətin yalnız güclü cəmiyyətin mövcudluğu şəraitində uğurlu ola bilməsi anlamının mövcudluğunu qeyd etmək gərəkdir. Bu, cəmiyyətin daxili birliyi ilə regional və qlobal həmrəyliyin maksimum ahəngdarlığının təmini məsələsini önə çəkir. Çünki bu anlam dövlət identikliyi ilə milli identiklik arasında harmoniyanın yaranmasının başlıca şərtidir. Beynəlxalq təcrübə göstərir ki, vurğulanan şərt ödənmədikdə müstəqil dövlətin dünya miqyasında statusu təsdiqini tapmır. Dövlətin müstəqillik aspektində kimliyi aydın və dəqiq olmalıdır. Həmin kimlik toplumun (millətin) birliyi üzərində qurulursa, dövlət identikliyi real pozitiv məzmun alır. Onun təmsilçisi isə xarici siyasət kursu olur. Burada dövlət identikliyində cəmiyyətin gücünün təsiri kontekstində incə bir fəlsəfi məqam mövcuddur.

Ümumiyyətlə, dünya üzrə dövlətçilik tarixində xarici siyasət iki istiqamətdə cəmiyyətin kimliyini ifadə edir Birincisi, xarici siyasətdən başqalarına təzyiq və təsir ertmək üçün istifadə edirlər. İkincisi, cəmiyyətin birliyi və mənəvi dəyərləri əsasında xarici siyasət dövlətin identikliyini formalaşdırır. Birinci model dövlətin aqressiv və təzyiqedici imicini yaradır, ikinci isə kollektiv fəaliyyət əsasında əməkdaşlıq və dostluğa, qarşılıqlı hörmətə xidmət edir.

Ancaq dövlət identikliyinin münasibətlərdə kollektivçi əməkdaşlıq mühitini yaratmasının kökü ölkə cəmiyyətinin daxili birlik forması və məzmunundan asılıdır. Sosial həmrəyliyin ruhu, əsas əlamətləri və məqsədi dövlətin xarici siyasətini kollektiv yaradıcı edə bilir. Məhz bu anlamda xarici siyasət dövlət identikliyini formalaşdıra bilir.

Deməli, Azərbaycanın dövlət quruculuğunun milli ideya kontekstində başlıca əlaməti cəmiyyətin birliyi və bütün sosial kəsimlərin həmrəyliyində milli ilə bəşərinin harmoniyasına əsaslanması ilə bağlıdır. Onu təmin etməyin mexanizmləri azərbaycançılıq və multikulturalizmdir.

Daxili birlikdən beynəlxalq miqyasda dövlət identikliyinin formalaşmasına transformasiya güclü dövlətlə güclü cəmiyyətin vəhdətini təşkil etməkdə əsaslı rol oynayır. Çünki güclü, bütöv və milli ideyası olan cəmiyyətlə dövlətçilik strategiyasının uyğunluq təşkil etdiyi ölkədə etibarlı güclü dövlət qurula bilər. Məsələnin digər aspekti daha aktual olan Böyük millətin formalaşması ilə bağlıdır.

### Böyük millətin güclü dövləti

Avropa üçün bu sual XVII-XVIII əsrlərdə aktual idi. Tədqiqatçılar dövlətdən millətə və millətdən dövlətə tarixi keçidlərlə bağlı çox yazmışlar. Lakin heç də hər bir ölkə Avropanın keçdiyi yolda deyildir. Hər cəmiyyətin özünün təcrübəsi ola bilər.

Bundan başqa, Azərbaycan qədim dövlətçilik və güclü cəmiyyət yaratmaq ənənəsinə malikdir. Tarix boyu bir neçə imperiya qurmuş bir millətin özü başqalarına nümunə ola bilər. Bununla yanaşı, hazırkı mərhələdə dövlət – millət münasibətləri həm dövlət idarəedilməsi, həm də, ümumiyyətlə, onların qarşılıqlı əlaqəsi baxımından prinsipial məqamlarla xarakterizə olunurlar. Xüsusilə, XX əsrin son onilliyindən başlayaraq, bütövlükdə dünya miqyasında dövlət-cəmiyyət münasibətləri, o cümlədən, güclü dövlət–güclü cəmiyyət münasibətləri fərqli məzmun almağa başlamışdır.

Bu aspektdə Azərbaycanda güclü dövlət quruculuğunun yeni cəmiyyət (müəyyən anlamda Böyük millət) quruculuğu ilə qarşılıqlı əlaqədə aparılması fərqli xüsusiyyəti ortaya qoyur. Burada prinsipial məqam ondan ibarətdir ki, dövlətin gücü mənəvi, əxlaqi, ideoloji, mədəni aspektlərdə toplumun bilik modelindən qaynaqlanır. Buna görə də güclü Azərbaycan Respublikası güclü millət anlayışına əsaslanır. Burada aparıcı və həlledici rolu isə lider oynayır.

Deməli, əslində, yuxarıdakı yarımbaşlıqda qoyulan sualın cavabı güclü dövlətlə güclü cəmiyyətin (millətin) bir-birini tamamlaması kontekstində əhəmiyyətlidir. Onlar bir-birinin ardınca deyil, obrazlı desək, iç-içə, harmoniya şəklində və bu mənada bir-birini tamamlayaraq Azərbaycan nümunəsini yaradırlar. Bunun fonunda böyük millət quruculuğu maraqlı bir şəkildə müstəqil dövlət quruculuğu ilə vəhdət təşkil edir. Böyük millətdən güclü dövlətə və güclü dövlətdən Böyük millətə keçid vahid bir prosesin sadəcə, iki aspektini təşkil edir.

İlham Əliyev bu əsasda Vətən müharibəsi ilə müasir müstəqil Azərbaycanın tarixinin siyasi və dövləti aspektlərdə bir mərhələsinin başa çatdığı tezisini irəli sürür. Bu mərhələnin başlıca əlamətləri olaraq tarixi ədalətin bərpasını, milli ləyaqətin yenidən dirçəlməsini və hüququn təmin edilməsini görür. Bu ümumi nəticə "çətiri" altında müstəqil dövlətçiliyin şərtlərinin tam oturuşması, vətəndaş cəmiyyətinin formalaşması və dövlətin geosiyasi statusunun dəqiqləşməsi xüsusi əhəmiyyət kəsb edir.

Məsələnin bu cür qoyuluşu istər-istəməz əhəmiyyətli bir məsələni ortaya çıxarır. Yəni bu vəhdətdə əsas məqsədlər nələrdən ibarət olmalıdır? Güclü dövlətin Böyük milləti və ya böyük dövlətin güclü milləti praktikada hansı məqsədləri və əlamətləri ilə seçilə bilər?

Prezident həmin kontekstdə başlıca məqamları Azərbaycanın strateji inkişaf kursu çərçivəsində bir neçə kriteriyalar üzrə müəyyən etmişdir. Onlar aşağıdakılardır: 1) Dayanıqlı strateji inkişaf; 2) "Yaşıl ölkə" quruculuğu; 3) Yüksək rifah cəmiyyəti quruculuğu (fəzilətli millət quruculuğu); 4) Güclü türk birliyini cəmiyyət və dövlət miqyaslarında özündə ehtiva edən Türk Dövlətləri Təşkilatı (TDT) quruculuğu və bütün bu hədəfləri reallaşdırmanın başlıca mexanizmi olan regional – regionlararası – qlobal miqyaslarda liderlik missiyası ilə fəaliyyət miqyasının yeni məzmunu (həm şəxsiyyətin siyasi liderliyi, həm də dövlətin regionlararası miqyasda liderliyinin bir-birini şərtləndirməsi aspekti).

### Dayanıqlı strateji inkişaf

İndi dünyanın hər bir qətiyyətli, əsl müstəqil, tam suveren və tərəqqi etmək xətti seçmiş dövləti üçün dayanıqlı inkişaf yalnız sosial, iqtisadi, təhlükəsizlik və idarəetmək xüsusiyyətləri ilə bağlı olan məsələ deyildir. Dinamik inkişaf geniş anlamda cəmiyyətin və millətin özünütəşkili və qarşısına qoyduğu məqsədlərlə sıx bağlılıqda götürülür. Bu, XXI əsrin dövlətçilik kontekstində meydana gətirdiyi yeni fəlsəfi və politoloji məqamdır. Məsələ həm "dövlət" və "millət" anlayışlarının, ümumiyyətlə, kollektiv miqyasda "inkişaf nədir?" sualına cavab axtarışları ilə bağlıdır. Müasir fəlsəfi, elmi və politoloji təfəkkürdə sosiumda inkişafın sosial, siyasi, təhlükəsizlik, iqtisadi və s. aspektləri ilə mənəvi, mədəni, əxlaqi, ideoloji tərəflərin vəhdəti ilə müəyyən olunduğu kimi yekdil mövqe vardır. Yəni yalnız iqtisadi tərəqqi qalıcı inkişaf sayılmır.

Və yaxud təhlükəsizliyin təmininin yüksək olduğu ölkələrdə qalıcı inkişafdan danışmaq doğru deyildir. Burada mütləq surətdə iqtisadi, sosial, siyasi, texnoloji, kommunikativ, informasiya və digər aspektlərlə millətin özünüyaratması (və ya özünütəşkil) fəlsəfəsinin sıx əlaqəsi vacib şərtdir. Hətta süni intellektin cəmiyyətə tətbiqi və ya bəşəriyyətin Böyük keçidinin humanitarlıq və sosial ədalətlilik konteksti belə mənəvi, mədəni və əxlaqi faktorların əhəmiyyəti ilə əlaqələndirilir.

Onda avtomatik olaraq, milli ideyaya əsaslanan tarixi dövrləşdirmədə dayanıqlı inkşaf məqamı xüsusi yer tutmalıdır. Eyni zamanda, dayanıqlı inkişaf məsələsi strateji sənədlərdə əsas hədfələrdən biri kimi xüsusi məzmunda verilməlidir. Azərbaycanın 2030-cu ilə qədərki sosial-iqtisadi inkişaf strategiyasına aid sənəddədki Milli Prioritetlər sırasında dayanıqlı inkişaf məhz həmin kontekstdə nəzərə alınmışdır. Bununla da etibarlı inkişaf faktoru strateji hədəflərdən biri kimi müxtəlif aspektlərin vəhdəti olaraq güclü dövlət və böyük millət quruculuğu kursunda özəl məzmun almışdır. Azərbaycan Prezidenti müasir tariximizdə ilk dəfə olaraq məsələni bu dərəcədə əhəmiyyətli kontekstdə qoymuşdur.

Deməli, etibarlı strateji inkişaf, sadəcə olaraq, vəzifə deyildir, fəlsəfi və politoloji məzmunu olan və nəzəri-konseptual aspektdə praktiki-tətbiqi tərəfi özündə ehtiva edən yeni strateji termindir. Belə inkişaf faktoru vurğulanan kontekstdə böyük millətin güclü dövlət qurmaq kursunun başlıca əlamətlərindən biri kimi qəbul edilməlidir. Millətn böyüklüyü ölkənin və dövlətin müstəqil olaraq etibarlı inkişafını təmin etməklə sıx bağlıdır!

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Qərb Gürcüstanda prezident seçkisinə hansı ssenari ilə gedəcək?

(əvvəli 1-ci səhifədə)

İnsidentlərin tamamilə aradan qalxması, Gürcüstanda normal həyatın bərpa olunması üçün indi bircə addım qalıb. Yəqin ki, "Gürcü arzusu" Qərbin əlaltısı rolunda çıxış edən prezident Salome Zurabişvilini dekabrın 14-də yola salacaq və prosesə yekun vuracaq.

Doğrudur, Zurabişvili bəyanat yayaraq dekabrın 14-də Gürcüstan prezidenti postunu tərk etməyəcəyini açıqladı. Amma onun 2 gün öncə gözlənilmədən Fransa Respublikasına səfər etməsi vəziyyəti dəyişib, yeni ehtimallar yaradıb. Prezident Administrasiyası məlumat yayıb ki, Salome Zurabişvili ölkədə baş verən hadisələrlə bağlı məsləhətləşmələr keçirmək üçün Avropa turnesinə çıxıb. Hansı ki, onun kimlərlə görüşəcəyi, Qərb liderlərindən nə istəyəcəyi barədə heç bir məlumat açıqlanmır.

Siyasi təhlilçilər ehtimal edirlər ki, xanım Zurabişvilinin "işgüzar səfər" adlandırdığı bu gediş onun ölkədən son gedişi də ola bilər. Yəni, xanımın bir daha Gürcüstana geri dönməyəcəyini düşünənlər var. Bu ehtimal müəllifləri qeyd edirlər ki, Gürcüstanın hüquq-mühafizə orqanları son aksiyalar zamanı təxribatlar törədən, bu səbəbdən həbs edilən müxalif partiya liderlərinin ev və ofislərində axtarış apararkən pirotexnikalarla yanaşı, çoxlu sayda məxfi sənəd də götürüblər. Qərb xüsusi xidmət orqanları tərəfindən hazırlanan, Gürcüstanda çevriliş planlarını ehtiva edən bu sənədlərin Salome Zurabişviliyə də bağlılığı var. Dekabrın 14-də səlahiyyət müddəti başa çatdıqdan sonra xanım prezidentin bu sənədlər əsasında istintaqa cəlb ediləcəyi ehtimalı yüksəkdir.

Faktdır ki, xanım Zurabişvili Gürcüstan prezidenti postuna Fransa vətəndaşı olaraq gətirilib. Prezident olduğu dövrdə də Fransadan aldığı təlimatlar üzrə hərəkət etdiyinə dair sübutlar mövcuddur. Bu baxımdan "Fransa casusu olan prezident" kimi ləqəbi vardır. Başı qolda olan zaman dərhal Fransaya üz tutması təsadüfi deyil. Fransa onu yeni təlimatlarla geri qaytarıb davam gətirməsi üçün əlavə qüvvələr verəcəkmi? Yoxsa, sonu çatdığını düşünərək yayındırmaq üçün qaçıbmı? Yaxın günlərdə bu suallara aydınlıq gələcək.



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Son 2 gün ərzində Qərbə bağlı analitik mərkəzlərin Gürcüstanda cərəyan edən proseslər üzrə şərhlərinə baxanda görünür ki, onlar hadisələrin nə üçün məğlubiyyətə doğru getdiyinin səbəblərini araşdırırlar. Düzdür, bu yozumlarda özlərini, yəni Qərb siyasi mərkəzlərini haqlı çıxarmağa çalışırlar. Hətta, yaranmış durumu "tufanqabağı sakitlik" kimi də dəyərləndirirlər.

Amma nə qədər çaşdırıcı fikirlər səsləndirsələr də, istinad etdikləri arqumentlər fonunda məğlub duruma düşdüklərini büruzə verirlər. Məsələn, qeyd edirlər ki, "son 30 il müddətində ən azı 4 dəfə "siyasi travma" alması Gürcüstan xalqının gözünü qorxudub. Qorxu amili xalqı belə aksiyalar keçirməkdən yayındırır".

Qərb analitikləri tərəfindən səsləndirilən bu tezisdə bircə sözü dəyişməklə, onu reallığa uyğunlaşdırmaq mümkündür. Cümlədəki "qorxu" sözünü "ayılmaq" sözü ilə ifadə etsək, həqiqət yerini tapar. Qərb analitikləri obyektiv olsaydılar, deyərdilər ki, "son 30 il müddətində ABŞ və Avropa İttifaqı tərəfindən ən azı 4 dəfə aldadılaraq "siyasi travma" yaşaması Gürcüstan xalqının gözünü açıb, reallıqları görməsinə şərait yaradıb. Xalq anlayıb ki, Qərb mərkəzləri Cənubi Qafqazda geopolitik oyun aparırlar. Gürcüstan xalqını da bu oyunlara alət ediblər. İndi isə xalq hər şeyi görür, müqayisə aparıb nəticə çıxarır. Paralament seçkisi üzərində qurulan oyunlara da bu səbəbdən qatılmır. Yenidən tora düşməkdən çəkindiyi üçün aksiyalara dəstək verməkdən yayınır".

ABŞ və Avropa İttifaqı Gürcüstanda demokratik seçki uğrunda deyil, öz mövcudluqlarını təmin etmək üçün savaşırlar. Gürcüstan xalqı da bu həqiqəti görür və anlayır. Xatırlatmaq yerinə düşər ki, ABŞ və Avropa İttifaqının "Gürcü arzsu"na qarşı intensiv təhdidləri 26 oktyabr seçkisindən xeyli əvvəl – 2022-ci ildən başlayıb. Bu proses ilk dəfə 2023-cü ildə açıq müstəviyə keçib. Həmin dövrdə Gürcüstan hökuməti "Xarici təsirin şəffaflığı haqqında qanun" layihəsi hazırlandığını elan edib. Dərhal sonra açıq və sərt formada təpkilərlə üzləşib. 2024-cü ilin aprel ayında Qərbyönümlü fəallar, QHT, KİV və siyasi partiyalar küçələrə çıxdılar, parlamentə təsir göstərmək, "xarici agentlər" haqqında qanunun qəbul edilməsinə mane olmaq istədilər. Həmin dövrdə də parlament binasını mühasirəyə alaraq, Tbilisinin mərkəzi küçələri ilə yürüş təşkil etdilər. Hökumət evinin, Xarici İşlər Nazirliyinin yerləşdiyi mərkəzi rayonlarda gündəlik iş rejimini pozdular. Proseslərin qızışmasının əsas səbəbi qeyd olunan aksiyaların ABŞ və Avropa İttifaqı tərəfindən dəstəklənməsi oldu. Qərb mediası aksiyaya informasiya dəstəyi verdi. Onu "demokratların avtokratlar üzərinə yürüşü" kimi təqdim etdi.

Həmin dövrdə parlament seçkisi gündəmdə yox idi. Amma Qərb Gürcüstan hökumətini təhdid edirdi. Qanun layihəsinə etiraz edənlər Qərbdən təkcə informasiya dəstəyi deyil, həm də siyasi güc alırdılar. ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller aprelin 5-də açıqlama yayaraq, "Biz Gürcüstan parlamentində "xarici agentlər haqqında" qanun layihəsinin qəbul edilməsindən dərin narahatlıq keçiririk", – deyə bəyanat vermişdi . Prosesin davam edəcəyi təqdirdə, Gürcüstana qarşı sanksiyalar tətbiq olunacağını açıqlamışdı. ABŞ ilə yanaşı, Avropa İttifaqı da belə mövqe sərgiləmişdi.

Çox keçmədən ABŞ və Avropa İttifaqı Gürcüstana qarşı ilk sanksiyalarını elan etdilər. 2024-cü ildə rəsmi Tbilisiyə yardım məqsədilə nəzərdə tutulmuş 95 milyon dollarlıq paket birtərəfli formada ləğv olundu. Avropa İttifaqı isə 2024-cü ildə Gürcüstan Silahlı Qüvvələrinə dəstək üçün Avropa Sülh Fondundan ayırdığı vəsaiti dondurdu. Bu yolla Gürcüstanın mövcud hakimiyyətini çıxılmaz duruma salmaq, xarici agent haqqında qanunun qəbul edilməsindən çəkindirmək istədilər.

Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidməti bu yöndə təkzibedilməz faktları aşkarlayıb. Məsələn, DTX 2023-cü ilin oktyabr ayında müəyyən edib ki, Tbilisidəki "İbis" otelində dörd gün ərzində QHT nümayəndələri üçün "hökuməti devirmək, polisə müqavimət göstərmək" mövzusunda təlimlər keçirilib. CANVAS və Şərq-Qərb İdarəetmə İnstitutu vasitəsilə təşkil edilmiş həmin təlimlər USAID tərəfindən maliyyələşdirilib. Qeyri-adilik ondadır ki, USAID bu tədbiri "xərçəng xəstəliyindən əziyyət çəkənlərə yardım" adı altında keçirib. Layihəni fərqli ad altında icra etməkdə məqsəd hüquq-mühafizə orqanlarının diqqətini yayındırmaq, gürcü fəallar üçün "iğtişaşları qızışdırmaq və hökumətin devrilməsinə yönəlmiş təlimlərin" keçirilməsini təmin etmək olub. Təlim iştirakçılarına "zorakı etirazlar, nəqliyyatın hərəkətinin pozulması, hökumət binalarının nəzarətə götürülməsi" ilə bağlı dərslər veriblər.

Prosesin gedişatı göstərdi ki, Gürcüstan DTX-sı haqlı imiş. Həmin təlimlərin nəticəsi indi – noyabrın 28-dən etibarən keçirilən aksiyalar fonunda özünü göstərir.

Bu arqument bir daha sübut edir ki, Gürcüstanda indi Qərb tərəfindən aparılan dava azad seçki məsələsi naminə deyil. Bu savaş Qərbin Gürcüstanda, o cümlədən bütövlükdə, Cənubi Qafqazda siyasi tələblərinin təmin edilməsi uğrunda aparılan mübarizədir. O, illər öncədən başlayıb, indi də davam edir. ABŞ və Avropa İttifaqı "Xarici təsirin şəffaflığı haqqında qanun" layihəsinin qəbul edilməsinə qarşı başlatdıqları etiraz dalğasını 26 oktyabr parlament seçkiləri fonunda davam etdirdilər.

Yeri gəlmişkən, qeyd edək ki, ABŞ və Avropa İttifaqı ayrı-ayrı dövlətlərdə öz maraqlarını təmin etmək üçün təzyiq vasitəsi rolunda, adətən, yerli müxalifət partiyalarından, ələ alınmış QHT və KİV-lərdən istifadə ediblər.

İndi isə vəziyyət bir qədər fərqlidir. ABŞ və Avropa İttifaqı Gürcüstanda son proseslər fonunda məğlub duruma düşdüklərini görüncə "ehtiyat qüvvələri", "kölgə qrupları" dövriyyəyə buraxıblar.

Aydın şəkildə görünür ki, ABŞ və Avropa İttifaqı Gürcüstanda etirazçıları gücləndirmək, hakimiyyəti zəiflətmək kursunu yürüdür, faktiki olaraq, dövlət çevrilişinə təşəbbüs göstərirlər.

# Zəfər paradı – Qarabağ qələbəsinin təntənə nidası



**2020-ci il dekabr ayının 10-da Bakının Azadlıq meydanında Azərbaycan ərazilərinin 30 illik işğalına son qoyan Vətən müharibəsindəki tarixi qələbəyə həsr edilmiş Zəfər paradı keçirildi. Öz möhtəşəmliyi və təcəssüm etdirdiyi ibrət dərsi ilə çağdaş tariximizin öyünc səhifəsi olan bu hərbi-siyasi təntənə Azərbaycanın qalib səsini bütün dünyaya bəyan etdi. Xalqımızın 30 il gözlədiyi o tarixi gündən 4 il keçir. Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru Mehman Süleymanovla Zəfər paradının ifadə etdiyi ümummilli dəyər və tarixi önəm ilə bağlı müsahib olduq.**

**– Qalib ölkənin hərbi güc və döyüş qüdrətini nümayiş etdirən parad Xalq – Ordu – Lider üçlü fenomeninin Zəfər hesabatı oldu. Paradı qəbul edən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla çiyin-çiyinə dayanması, hərbi keçiddə qardaş ölkənin ordu bölməsinin də iştirakı ümummilli lider Heydər Əliyevin “bir millət–iki dövlət” gerçəyini bir daha dünyaya nümayiş etdirdi.**

– Ondan başlayaq ki, bu zəfər törəni Türkiyə Respublikasının hərbi qüvvələrinin Azərbaycanda iştirak etdiyi ilk parad deyildi. Tarixdən məlumdur ki, Türkiyə hərbi qüvvələri Azərbaycan ordusu ilə birlikdə hələ 1918-ci il sentyabr ayının 16-da Bakı ətrafında təşkil olunmuş hərbi paradda iştirak etmişdilər. Həmin parad Azərbaycan Xalq Cümhuriyyətinin və Osmanlı Türkiyəsinin hərbçilərindən yaradılmış Qafqaz İslam Ordusunun 1918-ci il sentyabrın 15-də Bakı şəhərinin düşmənlərdən azad edilməsinə həsr olunmuşdu.

Bu, Azərbaycanın müstəqillik tarixinin ilk paradı idi. Həmin təntənədə Qafqaz İslam Ordusunun komandanı Nuru paşa, onun müavini Əliağa Şıxlinski, Osmanlı Türkiyəsi ordusunun yüksək rütbəli zabitləri və Azərbaycan hökumətinin nümayəndələri iştirak etmişdilər. Bir əsr sonra Bakı şəhərinin 1918-ci il sentyabr ayının 15-də işğalçı qüvvələrdən azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda da Türkiyə hərbi qüvvələri ilə yanaşı, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etdi.

2018-ci il sentyabr ayının 15-də Bakının Azadlıq meydanında təşkil olunmuş bu möhtəşəm paradda hər iki ölkənin dövlət himnləri səsləndi, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan nitq söylədilər. Azərbaycan lideri çıxışında bildirdi ki, Qarabağın azad ediləcəyi gün uzaq deyil. Növbəti hərbi parad isə bu qələbəyə həsr ediləcək. Sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi başlandı.

Bundan 2 il 3 ay sonra Vətən müharibəsində tarixi qələbəyə həsr olunmuş Zəfər paradı da Azərbaycan–Türkiyə qardaşlığının növbəti təntənəsi idi. Zəfərə aparan yolda Türkiyə siyasi-mənəvi dəstəyi ilə Azərbaycanın yanında oldu və Azərbaycanı tək qoymadı. Bunu Zəfər paradındakı nitqində Prezident İlham Əliyev də xüsusi olaraq qeyd etdi: “Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk”.

**– Zəfər paradı, həqiqətən, əzəməti və daşıdığı siyasi-mənəvi dəyərlə hər iki ölkədə böyük əks-səda doğurdu, qardaşlığın möhtəşəm timsalına çevrildi.**

– Paradın keçirilməsinə hər iki ölkədə ciddi hazırlıq görülmüşdü. Meydanın qərbində olan hotelin qarşısından Azərbaycanın böyük ölçülü dövlət bayrağı, şərqindəki hotel binasında isə dəmir yumruğu əks etdirən böyük görüntü var idi. Bu nəhəng plakatın üzərində “8 noyabr Zəfər Günü” yazılmışdı. Meydandakı tribuna ilə üzbəüz isə Vətən müharibəsindən qalib çıxmış Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bugününü əks etdrən rəsm-plakatlar quraşdırılmışdı. Tribunaya isə Azərbaycanın və Türkiyənin dövlət bayraqları yerləşdirilmişdi.

Paradı qardaş ölkənin mediası geniş işıqlandırdı və bu təntənə xalqlarımızda birgə öyünc və sonsuz coşğu yaratdı. Dostlarımız bu təntənəyə ürək dolusu sevindilər, düşmənlər isə kədərlənib xar oldular. Dünya bir millətin iki dövlətini qələbə zirvəsində gördü.

Paraddan əvvəl Azərbaycan və Türkiyə liderləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanında ucaldılmış “Əbədi məşəl”, türk şəhid əsgərlərinin xatirə abidələrini ziyarət etdilər. Sonra prezidentlər Azadlıq meydanındakı tribunaya qalxdılar. Hərbi orkestr “Azərbaycan fanfarası”nı ifa etdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi paradın hazır olması haqqında qardaş ölkələrin rəhbərlərinə raport verdi. Dövlət başçıları əsgərləri salamladıqdan sonra hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.

**– Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev parad iştirakçıları qarşısında söylədiyi nitqdə Ermənistanın Azərbaycana qarşı düşmənçilik siyasətinin tarixi, işğalın mahiyyəti, Azərbaycan dövlətinin münaqişə ilə bağlı dəyişməz mövqeyi və Vətən müharibəsində Zəfərin əldə edilməsi üçün aparılan mübarizə haqqında Azərbaycan xalqına, dünya azərbaycanlılarına və Azərbaycanın dostlarına əhatəli məlumat əksini tapdı.**

– Bu nitq, eyni zamanda, dünya ictimaiyyətinə, Azərbaycanın haqq mübarizəsinə göz yuman dünya birliyinə ünvanlanmış bir ədalət mesajı idi. İlham Əliyev, eyni zamanda, öz nitqində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsindən sonra qarşıda dayanan vəzifələr haqqında proqram xarakterli bəyanatlar da verdi.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən danışarkən respublika Prezidenti müxtəsər olaraq bu siyasətin təcavüzkar mahiyyətini obyektiv şəkildə xarakterizə etdi və həmin siyasətin hələ XX əsrin 80-ci illərinin sonlarında Ermənistanda cərəyan edən millətçi hərəkatla başlandığını bildirdi. İlham Əliyev tarixi həqiqətə istinad etməklə haqlı olaraq qeyd edirdi ki, əslində “Ermənistanın təcavüzkar siyasəti hələ 1980-ci illərin sonlarından başlamışdı.

O vaxt indiki Ermənistan Respublikasında yaşamış 100 minlərlə azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salındı. Zəngəzur, Göyçə, İrəvan mahalı bizim tarixi torpaqlarımızdır. Bizim xalqımız bu torpaqlarda əsrlər boyu yaşayıb, ancaq Ermənistan



rəhbərliyi o vaxt 100 minlərlə azərbaycanlını öz doğma torpaqlarından didərgin saldı.

Sonra Dağlıq Qarabağda eyni mənzərə müşahidə olundu, Ermənistan tərəfi zor gücü ilə Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayət törətdi, amansız Xocalı soyqırımı baş verdi. 1992-ci ilin may ayında Şuşa və Laçın işğala məruz qaldı. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğal altına düşməsi vəziyyəti daha da ağırlaşdırdı.

Azərbaycan xalqı, Azərbaycanın dövlət rəhbərliyi cəbhədə atəşkəsin elan edilməsindən sonra uzun müddət münaqişənin dinc və danışıqlar yolu ilə həllinə ümidini kəsmədi. Lakin İlham Əliyevin də qeyd etdiyi kimi, bu ümidlər bir nəticə vermədi. Bir tərəfdən dünyanın böyük təşkilatları və dövlətləri Azərbaycanın ərazi bütövlüyünü təsdiqlədiklərini bəyan etsələr də, Ermənistana qarşı ən adi təzyiqlər göstərilmədi. Ermənistan rəhbərliyi isə onun üçün əlverişli olan beynəlxalq mühitdən faydalanmaqla aparılan danışıqlara qarşı məsuliyyət nümayiş etdirmədilər.

Bütün bunlardan söz açan dövlət başçısı tarixi nitqində bildirdi.“Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam”.

Nəhayət, belə bir qərar qəbul edildi. 2020-ci il sentyabr ayının 27-də baş verən növbəti erməni hərbi təxribatlarından sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu təxribatlara və bütünlükdə davam edən işğala son qoyulması qərarını verdi: “Biz dedik yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi”.

Zəfər paradında etdiyi nitqində İlham Əliyevin bir Ali Baş Komandan kimi qətiyyətini, mübarizliyini, ardıcıllığını görmək mümkündür: “Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqının səbri tükənib və əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz onları oradan qovacağıq, onlar rədd olmalıdırlar bizim torpaqlarımızdan! Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi”.

**– Böyük Zəfərin əldə edilməsində Azərbaycan lideri İlham Əliyev qətiyyətinin tarixi rolunu paradda nitq söyləmiş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da məmnunluqla bəyan etdi: “Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir”.**

– Doğrudan da, xalqı və ordunu yumruq kimi birləşdirən Ali Baş Komandan İlham Əliyevin bu qətiyyəti, əslində, Vətən müharibəsinin xarakterini müəyyənləşdirən bir keyfiyyət oldu. Xalq, ordu Azərbaycan Prezidentinin ətrafında birləşərək Vətən müharibəsinə qalxdı və 44 gün ərzində tarixə iz salacaq bir qəhrəmanlıq nümunəsi ortaya qoydu. Düzgün qurulmuş siyasət, aydın hədəflər, yetərli güc və dəstək, bir də İlham Əliyevin Ali Baş Komandan kimi təşkilatçılıq məharəti nəticəsində 30 ilə yaxın davam edən erməni işğalına son qoyuldu. Başlıcası isə, İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan əsgərləri və zabitləri böyük şücaət göstərərək şərəfli bir missiyanı yerinə yetirdilər.

Dövlət başçısı İlham Əliyev bu böyük zəfərin əldə edilməsində Azərbaycan əsgərinin, zabitinin, Azərbaycan xalqının fədakarlığını yüksək qiymətləndirirdi.

Azərbaycanın əsgər və zabitləri dövlət bayrağını bir-birinin ardınca azad edilmiş yaşayış məntəqələrində dalğalandırdılar. Nəhayət, Azərbaycan bayrağı Şuşada dalğalanmağa başladı. Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi İlham Əliyev Şuşanın azad edilməsini şanlı mübarizənin yekunu kimi qiymətləndirirdi. “Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir”.

Məhz Şuşa şəhəri azad edildikdən sonra Ermənistan rəhbərliyi Azərbaycanla müharibədə məğlub olduğunu etiraf etməklə kapitulyasiya aktını imzalamalı oldu. 2020-ci il noyabr ayının 10-da Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli sənədə görə cəbhə xəttində atəş dayandırıldı, Ermənistan rəhbərliyi döyüşsüz olaraq öz qoşunlarını Ağdam, Laçın və Kəlbəcər rayonlarından geri çəkmək öhdəliyini öz üzərinə götürdü. Bununla, bir güllə də atılmadan bu üç böyük rayon erməni işğalından azad edildi. Bu nəticəni İlham Əliyev böyük qələbə hesab edirdi.

**– Prezident İlham Əliyev Zəfər paradındakı nitqində qarşıda dayanan ümummilli vəzifələrə də toxundu.**

– İlk növbədə, bu vəzifələr əldə edilmiş Zəfərin möhkəmləndirilməsi, Azərbaycanın azad edilmiş ərazilərinin müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. İlham Əliyev özünəxas qətiyyətlə Ermənistanın revanşist qüvvələrini xəbərdar edərək bildirirdi ki, Azərbaycanın dəmir yumruğu yerindədir. Həmin qüvvələr baş qaldırmağa çalışsalar, onda yenidən Azərbaycanın dəmir yumruğu ilə qarşılaşacaqlar. Bu dəmir yumruq isə məlum olduğu kimi, Azərbaycan xalqının, ordusunun və dövlət rəhbərliyinin birliyinin rəmzi idi. Həmin fikri ifadə etməklə, İlham Əliyev həm də bu birliyin qorunub saxlanmasının ümummilli vəzifə olduğuna işarə edirdi.

Bununla belə, İlham Əliyev əldə edilmiş Zəfərdən sonra Azərbaycan üçün yeni bir dövrün – quruculuq dövrünün başlandığını xüsusi ilə qabardırdı. Çünki Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisində törətdiyi dağıntıların, talanların, ekoloji terrorun miqyası son dərəcə böyük idi, işğal edilmiş ərazilərdəki bütün yaşayış məntəqələri yerlə-yeksan edilmişdi. Ölkə Prezidenti yenə də özünə xas olan qətiyyət və əminliklə bəyan etdi ki, işğaldan azad edilmiş ərazilər yenidən dirçəldiləcək, yenidən Azırbaycanın qaynar həyatına qaytarılacaqdır.

**– Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın söylədiyi nitq isə, böyük Atatürkün dediyi kimi, Azərbaycanın kədərini öz kədəri, sevincini öz sevinci hesab etməyin növbəti parlaq ifadəsi oldu.**

– Qardaş ölkənin lideri Azərbaycan torpaqlarının 30 illik işğalının yaratdığı məhrumiyyətlərə, münaqişənin bu qədər uzanmasına yol açan ikili siyasəti kəskin pislədi. Cənab Ərdoğan Qarabağa göz yaşından başqa heç nə gətirməyənlərin bundan sonra ağıllarını başlarına toplamalı olduqlarını söylədi. O qeyd etdi ki, xalqını keçmişin xülyaları ilə ovunduranlar izlədikləri siyasətin nəyə gətirəcəyinin fərqinə varmalıdırlar. Türkiyə Prezidenti şübhə etmirdi ki, Ermənistan xalqı Qarabağda yaşananlardan dərs çıxara biləcəyi təqdirdə bölgədə də yeni bir dövrün başlanğıcı qoyula bilərdi.

Azərbaycan xalqının əldə etdiyi Zəfərin nəyə yol açacağını isə Rəcəb Tayyib Ərdoğan obrazlı şəkildə belə ifadə edirdi: “Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır”.

**– Sonra isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Zəfər paradı başladı.**

– Dekabr ayının 10-da keçirilən bu tarixi təntənədə Vətən müharibəsində Azərbaycanın zəfərini təmin edən Silahlı Qüvvələrə məxsus bölmələr, ordumuzun cəbbəxanasında olan müasir silah və texnika, Türkiyə Respublkasının ordu bölməsi iştirak etdilər.

Möhtəşəmliyi qədər nizamlılığı ilə də göz oxşayan bu parada Vətən müharibəsindəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti tərəfindən yenicə təsis olunmuş “Zəfər” ordeninə layiq görülmüş general-leytenant Kərim Vəliyev komandanlıq edirdi.

Fəxri tribuna önündən əvvəlcə Azərbaycan Dövlət bayrağı və Zəfər bayrağı keçirildi. Zəfər bayrağını meydana Şuşa şəhərinin işğaldan azad edilməsində xüsusi xidmətləri olan, azad edildikdən sonra bu şəhərə ilk komendant təyin edilən, Vətən müharibəsinin aparılmasındakı fədakarlıqlarına görə general-mayor ali hərbi rütbəsinə və “Vətən müharibəsi qəhrəmanı” fəxri adına layiq görülən Zaur Məmmədov gətirdi. Zəfər bayrağının ardınca döyüş tapşırıqlarının icrasında xüsusi məharət nümayiş etdirən 20-yə yaxın hərbi hissənin döyüş bayraqları da tribuna önündən keçirildi.

Daha sonra böyük Zəfərin qazanılmasında tarixi xidmətlər göstərmiş qüvvələri təmsil edən dəstələr tribunanın önündə göründülər. Bir-birinin ardınca Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin və Hərbi Dəniz Qüvvələrinin dəniz piyadalarının dəstələri mübariz addımlarla meydana daxil oldular. Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsində və Ermənistanın silahlı qüvvələrinə ağır zərbə vurulmasında böyük məharət və şücaət nümayiş etdirmiş Xüsusi Təyinatlı Qüvvələrin dəstələrinə bu qüvvələrin komandanı, “Vətən müharibəsi qəhrəmanı” adına layiq görülmüş general-leytenant Hikmət Mirzəyev rəhbərlik edirdi.

Öncə erməni hərbi qüvvələrindən qənimət götürülmüş hərbi texnika və silahların bir qisminin nümayişi keçirildi. Bu silah və texnikanın önündə Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiyanı əks etdirən avtomobil irəliləyirdi.

Həmin kompozisiyanın üzərində böyük hərflərlə “Qarabağ Azərbaycandır!” sözləri yazılmışdı. Ardınca isə döyüşlərdən qənimət götürülmüş istifadəyə yararlı texnikalar Azadlıq meydanına gətirildi. Sonra da Azərbaycan Ordusunun cəbbəxanasında olan silahlar və hərbi texnika Azadlıq meydanından keçdilər. Hərbi keçiddə Azərbaycan Silahlı Qüvvələrini 3 min nəfərlik şəxsi heyət təmsil etdi. Paradda nümayiş etdiriləcək hərbi texnika, raket və artilleriya qurğuları isə 150 vahiddən ibarət idi.

Onların arasında “Qarabağ” ordenli general-leytenant Nizam Osmanovun başçılıq etdiyi xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu, “Zəfər” ordenli general-leytenant Ramiz Tahirovun başçılıq etdiyi Hava Hücumundan Müdafiə silahları sistemləri kolonu, “Zəfər” ordenli general-mayor Ağamir Sultanovun başçılıq etdiyi artilleriya silahları sistemlərinin kolonu, “Qarabağ” ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin dəstəsi də var idi.

Paradın sonunda isə Vətən müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi təyyarələr qrupu rəngli tüstülərlə səmada qalib Azərbaycanın dövlət bayrağının təsvirini canlandırdılar.

Zəfər paradı işğalçı Ermənistanın 30 illik hərbi-siyasi avantürasının mənasızlığını, bu ağılsız siyasətin hər iki xalqa gətirdiyi bəlaların misilsiz bir insanlıq cinayəti olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu parad xalqımızın əbədi qürur mənbələrindən biri olduğu qədər də Ermənistan tərəfi üçün də sonuncu ibrət dərsi önəmini daşıyır. Bu parad Azərbaycan Prezidenti İlham Əliyevin “Qarabağ Azərbaycandır!” hökmünü gerçəkləşdirən Zəfərin nida sonluğu oldu.

**– Maraqlı müsahibə üçün təşəkkür edirik.**

***Söhbəti hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Parad görməmişdik bu parad kimi

**Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda keçirilən Zəfər paradındakı nitqindən**

**Dağlıq Qarabağa fəlakət, qətliam və göz yaşından başqa heç nə gətirməyənlər də artıq ağıllarını başlarına toplamalıdırlar. Ermənistan rəhbərləri xalqın sərvətlərini Azərbaycanın torpaqlarını işğal atında saxlamaq üçün sərf etmişlər. Halbuki bu potensial mənasız müdafiə xətlərinə, silahlara, gözlərini kin və qan tutmuş rəhbərlərin ehtiraslarına sərf edilməsəydi, bu gün mənzərə çox fərqli olardı. Ermənistan siyasətçilərin bunu çox yaxşı təhlil edib, sülh və sabitlik əsasında gələcəyi qurmaq məsələsində cəsarətli addımlar atmalarını arzu edirik.**

**Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıda keçirilən Zəfər paradındakı nitqindən**




**(əvvəli 1-ci səhifədə)**

O zaman türkiyəli həmkarımız Osman Sarıyel yazmışdı ki, Türkiyənin Azərbaycana həmin sayda hərbçi göndərmək addımı Bakıda kiminsə xətri xoş olsun deyə və ya kimlərinsə xoşuna gəlsin deyə, atılmamışdır. Həmin addım türk dünyasının bədxahlarına göndərilən mesaj idi ki, Azərbaycan tək deyil.

Yaxud "Kommersant" qəzeti yazırdı ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıdan Ermənistan rəhbərlərinə səsləndi: "Ağlınızı başınıza yığın!" O zaman Rusiyada yaşayan Anatoli Rustamoviç Mamedqasanov "Kommersant"ın həmin qeydlərinə maraqlı bir reaksiya vermişdi: "Ermənistanın ağlını başına yığması mümkün deyil. Çünki bunun üçün ağıl da lazımdır, baş da. Ağlı və başı olan kimsə qonşu ölkənin ərazisini işğal edib viranəyə çevirməzdi".

Bütün bunlar bizim Zəfər paradımız haqqında fərdi təəssüratlarımızın bir hissəsidir. Ancaq həmin hərbi-siyasi tədbir haqqında rəsmi məlumat daha önəmli və əhəmiyyətli idi. Rəsmi məlumatda bildirilirdi ki, "Dəmir yumruq" əməliyyatının nəticəsində qazanılmış uğurun beynəlxalq aləmə təqdim edilməsi məqsədilə Bakının Azadlıq meydanında keçirilmiş Zəfər paradında Azərbaycan Ordusunun 3000 nəfərdən artıq şəxsi heyətin 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, eləcə də hərbi gəmi və katerlər nümayiş olundu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Kifayət qədər geniş cümlə oldu. Ancaq mən həmin arqumentlər arasından olduqca lakonik bir ifadəni qabartmaq istəyirəm: "Silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının..." Bu, olduqca önəmli fakt idi. Ali Baş Komandanımız həm Vətən müharibəsindən əvvəl, həm 44 günlük İkinci Qarabağ müharibəsi günlərində, həm də Zəfərdən sonra dönə-dönə demişdir ki, biz ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə lazım olan bütün addımları atır, müasir silahların alınması üçün yeni kontraktlar imzalayırıq.

Xatırladaq ki, müharibənin başa çatmasından cəmi bir ay sonra keçirilən Zəfər paradında ordumuzun yeni silahlarının da nümayiş etdirilməsi heç də təsadüfi deyildi. Çünki məğlub Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra bir müddət dilini sakit saxlasa da, Cənubi Qafqaza sülh və sabitlik gətirilməsini istəməyən qüvvələr ermənilərdə revanşist əhval-ruhiyyə yaratmaqla İrəvan rəhbərlərinin dilini "gizlətdikləri yerdən çıxarmağa" nail olmuşdular.

Mütəxəssislərin fikrincə, 10 dekabr 2020-ci il tarixli paradımız təkcə son iki əsrdəki çoxsaylı "məğlubiyyət"lərimizin ağrı-acısını canımızdan çıxartmaq baxımından deyil, həm də gələcəyə baxış mənasında kifayət qədər önəm kəsb edirdi. Həmin paradı bizim dünyaya göndərdiyimiz "birlik mesajı" adlandıranlar da var, Azərbaycan –Türkiyə qardaşlığının sarsılmazlığının sübutu adlandıranlar da, xalqın daha böyük zəfərlərə ruhlandırılması istiqamətində atılan mükəmməl addım kimi qiymətləndirənlərdə. Daha çox ekspert isə bu fikirdədir li, Zəfər paradı Bakı və Ankaranın beynəlxalq ictimaiyyətə ünvanlanmış açıq mesajı idi.

Mətbuat təmsilçiləri həmin gün haqqında söz açarkən, paradda qardaş Türkiyə Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçuların iştirakını Azərbaycan – Türkiyə dostluğunun, qardaşlığının əyani nümayişi kimi qiymətləndirirlər. Həmin gün bütün dünya bir daha gördü ki, ulu öndər Heydər Əliyevin dediyi kimi, "bir millət, iki dövlət" olan Azərbaycan və Türkiyə Mustafa Kamal Atatürkün ifadə etdiyi kimi, sevincli günlərdə də, kədərli günlərdə də daim bir-birinin yanındadırlar.

Bu paradın daha bir əhəmiyyəti isə dünya erməniliyinin mənəvi məğlubiyyətə uğramasını sübut etməyimiz idi. Bütün dünya gördü ki, Azərbaycan Ordusu öz qəhrəmanlığı və peşəkarlığı ilə təkcə Ermənistan silahlı qüvvələrini məhv etmədi, o, əsrlərdən bəri "at oynadan" erməni mifini də dağıtdı. Həmin günlərin region mətbuatı yazırdı ki, ermənilərin iki əsrdən çox "məğlubedilməz" adlandırdıqları hay ordusu 44 günlük müharibə dövründə 10 mindən çox fərari olması kimi acınacaqlı fakta görə rəzil günə düşmüşdü.

Amma Ermənistan əsgərlərinin fərarilik etməsi də səbəbsiz deyildi. Onlar bir tərəfdən Azərbaycan Ordusunun addım səslərini eşitdikcə vahimələnirdilər, digər tərəfdən isə erməni zabitlər öz əsgərlərinə qarşı amansızlıq edir, dəhşətli cəzalar verirdilər. 44 günlük müharibə işğalçı Ermənistanın öz əsgərlərinin döyüşdən qaçmasının qarşısını almaq üçün onların zəncirlə səngərə bağlandığını da sübut etmişdi.

Azərbaycan əsgəri isə Ali Baş Komandanımızın Zəfər paradında dediyi kimi: "Bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Dövlət başçımız Zəfər paradında xatırlatdı ki, bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi: "Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik. Bu istehkamlar elə qurulmuşdu ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi. Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi … Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

Həmin paradda geniş nitq söyləyən Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın söylədiyi "Qarabağı otuz illik həsrətdən sonra Ana Vətən ilə qovuşduran Azərbaycan Ordusunun şəxsi heyətini təbrik edir, onları dualarla cəbhəyə göndərən anaların əllərindən öpürəm" ifadəsi də hər iki ölkənin – Azərbaycan və Türkiyənin – televiziya tamaşaçılarında duyğusal təəssürat yaratmışdı, "20 Yanvarda şəhidlərin məzarları üzərinə qoyulan qərənfillər müstəqilliyi necə xatırladırsa, indi də Dağlıq Qarabağ bölgəsinə xas olan Xarı bülbül Azərbaycan torpaqlarının azadlığının rəmzinə çevrilmişdir" – qənaəti də.

Ancaq Türkiyə Prezidentinin Bakının Azadlıq meydanından Ermənistana "biz hələ sizə çox məsələlər barədə suallar verəcəyik" – deyə xəbərdarlıq etməsi bütün Türk dünyasının yekdil qərarı kimi səslənmişdi: "Müharibə zamanı Gəncə, Tərtər, Ağdam, Bərdə, Ağcabədi kimi Azərbaycan torpaqları da hədəfə alınmışdır. Yüz məsum mülki şəxs şəhid edilib, analar balasız, uşaqlar atasız-anasız qalmışdır. Hücumlar nəticəsində 416 qardaşımız da yaralanmışdır. Müharibə qanunları kobud şəkildə pozulub, insanlıq şərəfi ayaqlar altına atılıb. Bunları görməzliyə vuranların gözləri kimi vicdanları da kor olmuşdur. Hər məcrada bunun hesabını sormalıyıq".

… Bəli, haqlısız cənab Prezident! Soracağıq, soruşacağıq. Separatçı, işğalçı, qarətçi, terrorçu, təxribatçı, soyqırımları törətmiş, uşaq qatili kimi vicdanı çirklənmiş ermənilərə hələ çox sualımız olacaq. Azərbaycan Prezidentinin regiona sabitlik gətirmək naminə "Biz müharibə səhifəsini qapatmağa çalışırıq!" söyləməsi o demək deyil ki, xalqımız nəyisə və nələrisə unudacaq. Əsla elə deyil! Cənab Prezident dəfələrlə təkrarlayıb ki, biz sülh tərəfdarıyıq, qalib ölkə olsaq da, məğlub ölkəyə sülh əli uzadırıq. Ancaq bu o demək deyil ki, biz iki əsr boyu xalqımızın başına gətirilənləri unudacağıq. Qətiyyən yox! Biz heç nəyi unutmayacağıq!

Yəqin ki, bu qətiyyətin mənasını ermənilər də bilməmiş deyillər. Şəxsən, mən Ermənistan mətbuatında dəfələrlə oxumuşam ki, bəzi erməni ziyalıları Azərbaycan Prezidentinin "Mən nəyin, nə zaman, necə ediləcəyini hamıdan yaxşı bilirəm" – tezisini dünya erməniliyinə xəbərdarlıq kimi qəbul edirlər.

… 2020-ci ilin payızı milli tarixmizə düşmən əsarətində olan torpaqlarımızın işğaldan azad edilməsi ilə düşdü. Həmin ilin qış fəslinin ilk ayı isə Böyük Ermənistan ideoloqlarının başına alov- od yağdırdı. Bu odun, atəşin adı Bakıda keçirilən Zəfər paradı idi. Həmin atəş bizim ürəyimizi hələ əsrlər boyu isidəcək, ermənilərin xəyal və xülyalarını isə yüz illər boyu yandırıb-yaxacaq.

***İttifaq MİRZƏBƏYLİ***

# Çapalama



**(əvvəli 1-ci səhifədə)**

## Şübhə edənlər geriyə baxsınlar

Bu gün iqtisadi cəhətdən Rusiyadan asılı görünən Ermənistanın yaxın gələcəkdə Türkiyə ilə əlaqələr qurmasının Azərbaycan üçün heç bir təhlükəsi yoxdur. Türkiyə–Ermənistan sərhədinin açılması, iki ölkə arasında iqtisadi münasibətlərin genişlənməsi paralel olaraq Zəngəzur dəhlizinin də açılmasına müsbət təsir göstərə bilər. Əgər Paşinyan şimaldan iqtisadi-siyasi asılılığını aradan qaldırmaq, regional əməkdaşlığa üstünlük vermək istəyirsə, Türkiyə və Azərbaycanla danışıqları intensivləşdirməli sülh sazişinin imzalanmasını tezləşdirməlidir.

Siyasi şərhçi Tofiq Abbasov hesab edir ki, artıq Azərbaycan ermənipərəst dairələrin qurduğu tələlərə düşməyəcək: "Çünki sülh sazişi və əməkdaşlıq məsələlərinə Bakının özünün dəqiq və aydın baxışı var. Azərbaycan rəhbərliyi İrəvana öz sözünü dörd il bundan əvvəl deyib. O zaman, belə demək mümkünsə, potensial vasitəçilər də gördülər və əmin oldular ki, Bakı ikitərəfli – "tet-a-tet" danışıqlara üstünlük verir. İrəvanın bunu qəbul edib-etməməsindən asılı olmayaraq, biz bu yoldan dönməyəcəyik. Qərbin planları isə Ermənistandan təcrübə meydanı kimim istifadə etmək və bu yolla Azərbaycana təzyiqlərini artırmaq, boynumuza lazımsız öhdəliklər qoymaqdır. Avropa İttifaqı şərti şərhədin o üzündə yerləşdirdikləri qondarma missiyanın vasitəsilə Azərbaycanı qarışdırmaq məqsədini güdür. Amma qəbul etmək istəmirlər ki, Bakı tutduğu mövqeyindən bir millimetr belə geri çəkilməyəcək. Çünki hay riyakarlığının, fövqəlgüclərin oyunbazlığının da şahidi olmuşuq. Bundan sonra Azərbaycanın heç bir kənar dəstəyə, vasitəçilərin təşəbbüslərinə ehtiyacı yoxdur. Dövlətimiz qarşısına qoyduğu məqsədin bütün yükünü özü daşıyıb və onu lazımı nöqtəyə çatdırıb. Cənab Prezidentin COP29 sammitindəki çıxışlarında bu fikri dəfələrlə vurğuladı ki, Azərbaycan üzləşdiyi problemlərin hamısını öz gücünə həll edib. Daha beynəlxalq təşkilatların, psevdovasitəçilərin imkanlarından və resurslarından bəhrələnməyə ehtiyac duymur.

Fakt ondan ibarətdir ki, Ermənistan bir daha bölgədəki mövcud status-kvonu dəyişə bilməyəcək. O başqa məsələdir ki, kənar qüvvələr bölgədə mini çaxnaşma salmaq, lokal hərbi münaqişə törətməkdən ötrü çeşidli cəhdlərə baş vuracaqlar. Məsdəqləri bu bəhanə ilə Cənubi Qafqaza özlərinin "sülhməramlı" qoşunlarını gətirməkdir. Onlar üçün ən vacibi burada fiziki mövcudluqlarıdır. Azərbaycan heç vaxt bununla razılaşmayıb, bundan sonra da razılaşmayacaq. Bakı öz diplomatik yolu ilə gedir və heç bir halda bu yoldan çıxmayacağını ABŞ Dövlət Departamentinə də sübut edib. Əgər buna şübhə edən varsa, onda geriyə boylansın və Azərbaycanın dediyi sözünün ağası olduğuna əmin olsun".

Rəsmi İrəvan əsl simasını nə qədər maskalamağa çalışışsa da, səsləndirdiyi ziddiyyətli fikirlərdə, bir-birinə daban-dabana zidd açıqlamalarda "xoruzun quyruğu" görünməyə başlayır. Dünya da artıq kimin kim olduğunun fərqindərir.

## Cahillik və vassallıq

Artıq Qərbin də İrəvana arxa duracağına erməni ekspertləri kimi, siyasi isteblişment də inanmır. Hesab edirik ki, bunun iki əsas səbəbi var. Birincisi, Ermənistan real olaraq suveren dövlət deyil. Onun daha çox hansı qütbdən – "kollektiv Qərb"dən, yoxsa Moskvadan asılı olduğunu demək belə çətindir. İkinci səbəb isə İrəvanın regional və transmilli layihələrdən kənarda qalmasıdır. Yəni, Cənubi Qafqazda maraqları olan "böyük güclər"in əlində heç nəyi olmayan ölkəni regional oyunçu kimi qəbul etmələri mümkün deyil. Bu, məsələnin iqtisadi kontekstdən kənara çıxdığını izah eləməyə ehtiyac yoxdur. Məhz bu müstəvidə Rusiya rəhbərliyinin Azərbaycanla əməkdaşlığı gücləndirməsi birmənalı şəkildə Ermənistanda Kremlin antierməni addımı kimi qiymətləndirilir. Amma, aydın məsələdir ki, reallıqda heç də belə deyil.

Onlar uzun illər ərzində qonşularına qarşı apardıqları məkrli siyasətin dalana dirənməsindən bərk narahatdırlar. Hayların siyasi şüurundan "Rusiya Ermənistanla elə yaxınlıq etməlidir ki, bütün məsələlərdə birmənalı olaraq anti–Azərbaycan mövqeyi tutsun" kimi bir ehkam hələ də silinməyib. Praqmatizmin və reallığa ayıq gözlə baxmağın prioritet sayıldığı müasir siyasətdə bu istək, sadəcə, istehza doğura bilər.

Erməni siyasi ekspertlərdən birinin sosial şəbəkə paylaşımındakı bu fikri diqqət yetirilməyə layiqdir: "İndi razılaşmaq lazım gəlir ki, başqa seçim olmayacaq. Bəlkə də bizi indikindən də pis aqibət gözləyir".

Özünü nə qədər müasir, demokratik dəyərlərə riayət edən kimi göstərməyə çalışsa da Ermənistan rəhbərliyi və cəmiyyəti eyni bataqlığın "sakinləridir". Cahil cəmiyyət yalnız vassal liderlər yetişdirməyə qadirdir! Koçaryan, Sarkisyan kimi separatçı-sağçıların rəhbərliyini qəbul etmiş, hələ də "miatsum" tiryəkin dumanından ayıla bilməyən erməni cəmiyyəti kimdənsə asılı olmadan özgə idarəetmə tanımır.

Beləliklə, Ermənistan rəhbərliyi Cənubi Qafqazda böyük dövlətlərin maraqlarını lazımınca təmin edə bilməməsindən bərk narahatdır. Rəsmi İrəvan düşdüyü siyasi labirintdə necə davranmağı müəyyənləşdirə bilmir. Yolunu azmış və uçurumdan- uçuruma hoppanmağa çalışan alpinist kimi, Paşinyan iqtidarı gah Qərbdəki havadarlarına yalvarır, gah onlardan küsür, Azərbaycanı ittiham etməyə girişir, gah da "sülhü hamıdan çox istədiyinə" and içir. Gördüyümüz real mənzərə budur. Reallıq isə tələb edir ki, İrəvan ağlını başına toplasın, dürüst və sağlam siyasət yeritsin. Əks-təqdirdə, özünün yaratdığı xaos bataqlığının girdabında məhv olacaq.

Bakı sülhə aparan ən kəsə yolu İrəvana göstərib. Yox, əgər haylar və onların arxasında dayanan qüvvələr bu yolu minalamaq istəyirsə, həmin minalanmış sahəyə özləri düşəcəklər. Necə ki, özünün qazdığı və çapaladıqca daha dərinə getdiyi "siyasi bataqlıq"dan qurtula bilmir...

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycanın yaşıl hidrogen potensialı

*Xəzərin külək, Naxçıvanın günəş enerjisi imkanları böyük maraq doğurur*

**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayevin ölkə mediasına bildirdiyinə görə, COP29-da diqqətçəkən ən mühüm məsələlərdən biri Azərbaycanın ilk dəfə olaraq bu konfransda Hidrogen üzrə Milli Strateji Baxış sənədini təqdim etməsi idi. Bu sənəd çox böyük maraq doğurdu və respublikamızın hidrogen istehsalı ilə bağlı strateji baxışını ortaya qoydu, eləcə də bu istiqamətdə hədəflərini dünyaya nümayiş etdirdi.**




C.Abdullayevin sözlərinə görə, son illər Azərbaycanda hidrogen istehsalı və ixracının əhəmiyyəti ilə bağlı geniş təhlillər aparılıb. Xəzər dənizindən, Azərbaycandan Avropaya Qara dənizin dibi ilə keçməkdə olan ixrac marşrutu daxilində də hidrogen komponentinin olacağı barədə araşdırmalar da yüksək dəyərləndirilib. Ümumiyyətlə, hidrogenin Azərbaycanda istehsalı və ixracı ilə bağlı konkret hədəflər nəzərdə tutulub və yaxın perspektivdə layihələrin icrası istiqamətində fəaliyyətə başlanılacağı proqnozlaşdırılıb.

Agentlik direktoru müsahibəsində Azərbaycanın gələcəkdə istehsal edəcəyi hidrogeni dünya bazarlarına ixracı üçün Cənub Qaz Dəhlizinin (CQD) imkanları barədə də fikirlərini bölüşüb: “CQD vasitəsilə ixrac imkanları araşdırılır. Bu dəhlizlə ixracın mümkünlüyünün, təxminən, 20 faiz ətrafında olduğu qeyd edilir. Ayrıca ixrac boru kəmərinin inşası da masa üzərində təhlil olunacaq ssenarilərdən biridir. Faydalı ola biləcək daha bir ssenari də yüksəkgərginlikli elektrik verilişi xətləri ilə hidrogen istehsal edəcək qurğuların istehlakçıya yaxın yerlərdə yerləşdirilməsidir. Belə halın hidrogenin maya dəyərinin kifayət qədər ucuzlaşmasına səbəb ola biləcəyi vurğulanır. Bunlar təbii ki, hər biri çox ciddi modelləşmənin nəticəsi olaraq meydana gəlməlidir. Bu modellər artıq qurulub və müəyyən ssenarilər üzrə artıq bu modellərin nəticələri də bilinir”.

“Yaşıl” hidrogenin Azərbaycanda istehsal edilməsi strategiyasının hazırlanması üçün cəlb olunan şirkəti Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) maliyyələşdirəcəyini bildirən C.Abdullayev vurğulayıb ki, bu məsələdə bank, ilk növbədə, öz marağını ifadə edir. Təbii ki, burada Azərbaycan hökumətinin qərarının olması və bankın müəyyən zəruri hazırlıq işləri görməsi də vacib şərtdir.

Yeri gəlmişkən, Azərbaycanda hidrogen istehsalının kifayət qədər faydalı olduğu barədə “Advision” şirkəti ilkin tədqiqatlara əsaslanan hesabat hazırlayıb. Bu hesabatda hidrogen istehsalının səmərəliliyi üçün günəş və külək stansiyaları arasında optimal balans tapılmasının zəruriliyi, habelə onların hibrid formada hidrogen istehsalına cəlb olunacağı təqdirdə Azərbaycanda hidrogen istehsalının maya dəyərini aşağı düşəcəyi qeyd edilib.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin hidrogen və yaşıl texnologiyalar şöbəsinin müdiri Rəna Hümbətovanın hidrogen istehsalı ilə bağlı bəzi fikirlərini də bu məqamda diqqətə çatdırmaq istərdik. Şöbə müdirinin sözlərinə görə, uzun bir dövr ərzində dünyada tələbat əsas enerji daşıyıcısı kimi kömür, neft və qaz kimi yanacaq növləri ilə ödənilib. Ancaq zaman keçdikcə bu ənənəvi resurslar həm azalmağa başlayıb, həm də onların istifadəsinin ekoloji tarazlığın pozulmasına təsiri aydın nəzərə çarpıb. Təbii ki, belə bir şəraitdə hidrogen enerjisinə maraq da artıb.

Hidrogen özü yüngül olduğu üçün yanma zamanı ondan 3 dəfə çox istilik almaq mümkündür. Təsadüfi deyil ki, bu sahədə mövcud potensialın zənginliyinə və ekoloji təmizliyinə görə hidrogen “gələcəyin yanacağı” adlandırılır.

Əsas enerji mənbələrindən biri sayılan hidrogen iqlim böhranı ilə səmərəli mübarizədə və davamlı inkişafı dəstəkləməkdə əhəmiyyətli rol oynayır. Uzun bir dövrdə güclü transformasiyaya uğrayan hidrogen enerjisi bu gün “yaşıl” gələcəyə gedən yolda daha çox diqqət çəkir, karbonsuzlaşma prosesində mühüm önəm daşıyır, davamlı inkişafın əsas komponentləri sırasında yer alır.

Avropa Yenidənqurma və İnkişaf Bankının tədqiqatlarında Azərbaycan ekoloji cəhətdən təmiz hidrogen istehsalının məqsədəuyğun olduğu ölkə kimi təsdiqlənib. Bununla yanaşı, adıçəkilən bankın dəstəyi ilə Niderlandın tanınmış “Advision” şirkəti respublikamızın hidrogen potensialının qiymətləndirilməsi ilə bağlı təhlilini də uğurla gerçəkləşdirib. Qurumun hesabatında ölkəmizin bu sahədəki potensial imkanları ilə bağlı müsbət məqamlar yer alıb.

Hazırda ölkəmiz Avropa İttifaqı ilə birgə “yaşıl” enerji dəhlizini inkişaf etdirir. Bu təşəbbüs Azərbaycanda istehsal olunan bərpaolunan enerjinin Avropaya nəqlinə yönəlib. Respublikamızı “yaşıl” enerji dəhlizinin yaradılması üzrə Qazaxıstan və Özbəkistanla birləşdirən daha bir layihə də icra mərhələsindədir. Bu təşəbbüsdə ekoloji cəhətdən təmiz hidrogen həyati əhəmiyyətli rol oynayır.

Azərbaycan zəngin təbii qaz ehtiyatlarına (“Şahdəniz” yatağı), eləcə də yüksək bərpaolunan enerji mənbələri potensialına sahib olmaqla aşağı karbonlu hidrogen iqtisadiyyatını inkişaf etdirmək üçün yüksək mövqeyə malikdir. Bu isə ölkədə həm “yaşıl”, həm də “mavi” hidrogenin istehsalı üzrə inkişaf perspektivlərinin olması deməkdir. Bununla belə, “mavi” hidrogenin istehsalı zamanı karbon qazının tutulması və saxlanması kimi məsələlərin ətraflı araşdırılması tələb olunur.

“Yaşıl” hidrogenin istehsalı üçün optimal halda LCOH (Levelized cost of hydrogen) göstəricisi 2,92 €/kq olaraq qiymətləndirilir. Bu optimal variantda ən ucuz bərpa olunan enerji kombinasiyası üçün Xəzər dənizində Azərbaycanın şərq hissəsinin külək enerjisindən və Naxçıvan bölgəsində daha ucuz başa gələn günəş enerjisindən istifadə nəzərdə tutulur.

“Yaşıl” hidrogenin istehsalı ilə müqayisədə daha ucuz başa gələn “mavi” hidrogenin Azərbaycanda tətbiqi üzrə bir sıra çətinliklər mövcuddur. Məsələn, karbon qazının tutulması və saxlanılması ilə bağlı texnologiyanın tətbiqindəki qeyri-müəyyənliyin nəzərə çarpması, istehsal olunan “mavi” hidrogenin beynəlxalq aşağı karbon standartlarına cavab verməməsi, təbii qaza tələbatın artması kimi çağırışlar var.

# “cop29.az” saytına kiberhücum yüksək olub

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin məlumatına görə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində ölkəmizə qarşı davamlı kiberhücumlar müşahidə olunub. Bu kiberhücumların həcminə və sorğu sayına görə böyük əksəriyyəti “cop29.az” internet informasiya ehtiyatına yönəlib.**



Qeyd olunub ki, ümumilikdə, sammit dövründə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti 1,09 milyard sorğu qeydə alınıb. COP29 informasiya ehtiyatlarına yönəlmiş sorğuların 97 faizi kiberhücum məqsədli olduğuna görə adıçəkilən xidmət tərəfindən dərhal bloklanma həyata keçirilib. Həmin dövr ərzində COP29 informasiya ehtiyatları ilə yanaşı, digər dövlət qurumlarının informasiya sistemlərinə də kiberhücum cəhdləri müşahidə olunub.

Ən çox hücum “cop29.az” saytına və “gov.az” zonasının Adların Domen Sisteminə edilib. Eləcə də Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin Data Mərkəzində yerləşən dövlət qurumlarına məxsus bir sıra serverlərə və “president.az” saytına çoxsaylı kiberhücümlar qeydə alınıb.

Belə ki, “gov.az” zonası üçün domen sisteminə bu müddət ərzində 14,5 milyon ədəd fərqli IP-lərdən çoxsaylı sorğular göndərilərək, şəbəkə avadanlığının resurslarını istehlak edib, legitim trafikin emalında çətinlik yaradan kiberhücum tipli kibersorğular qeydə alınıb. Eləcə də bir sıra dövlət saytlarına, o cümlədən “president.az” və digər hostinq sistemlərinin informasiya ehtiyatlarına 7,48 Gbps həcmli fərqli IP-lərdən irihəcmli paketləri göndərərək şəbəkə kanalını yükləməklə resursları əlçatmaz edən xüsusi hədəfləmiş kiberhücumcəhdləri müşahidə olunub.

# Gələcəyə yaşıl qapı

**Ölkəmizin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu evsahibliyi bütün dünyada birmənalı olaraq bəyənilir, bu mötəbər tədbirdə əldə edilmiş yekun nəticələr geniş müzakirə olunur.**



Böyük Britaniyanın Ekseter Universitetinin biznes əlaqələri və innovasiyalar üzrə prorektoru doktor Stüart Brokliharst bildirib ki, Azərbaycan COP tarixində ən yaxşı təşkil olunmuş tədbirlərdən birinə evsahibliyi etdi. Xəzər Siyasət Mərkəzinin Londonda təşkil etdiyi “Xəzər Enerji Təhlükəsizliyi və COP29-dan sonra” mövzusunda keçirilmiş konfransda britaniyalı alim Bakının COP29-a çox qısa bir zamanda hazırlaşdığını xatırladaraq deyib ki, Avstraliya hələ rəsmi olaraq COP31-in ev sahibi elan olunmasa da, onların diplomatik komandası bu tədbir üçün artıq hazırlıqlara başlayıb. Bakının isə hazırlıq üçün bir ildən az bir zamanı olmasına baxmayaraq, bu qədər qısa müddətdə belə bir tədbirin təşkilinə nail olması böyük bir uğurdur.

Azərbaycan paytaxtında keçirilən bu tədbirdə siyasi liderlərdən tutmuş biznes rəhbərlərinə, mütəxəssislərə qədər çox geniş spektrli şəxslərin iştirak etdiyini xatırladan Stüart Brokliharstun sözlərinə görə, onların bəziləri, bəlkə də, adi halda Xəzər dənizi regionuna səfər etməzdi: “İştirakçılar tədbir zamanı Azərbaycan insanlarının və mədəniyyətinin qonaqpərvərliyi ilə bağlı çox müsbət təəssüratlarla qayıdıblar. Veteran COP iştirakçıları arasında tədbirin son illərdəki bütün COP-lardan daha yaxşı təşkil edildiyini vurğulayan çox sayda insan var idi”.

Bakı iqlim konfransının gələcək üçün əhəmiyyətini vurğulayan britaniyalı alim diqqətə çatdırıb ki, bu tədbir gələn il Braziliyada keçiriləcək COP30 üçün zəmin hazırlamaq baxımından mühüm rol oynayıb. “Bu COP təkcə özlüyündə əhəmiyyətli deyildi, eyni zamanda, növbəti ilin iqlim dəyişikliyi müzakirələri üçün ciddi bir baza təmin etdi”, – deyə o əlavə edib.

# Biləsuvar və Neftçalada da günəş enerjisi stansiyaları tikilir

**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayevin bildirdiyinə görə, 2026-cı ildə “Masdar”ın 2 layihəsinin – 445 meqavatlıq Biləsuvar və 315 meqavatlıq Neftçala günəş enerjisi stansiyalarının istismara veriləcəyi planlaşdırılır.**



C.Abdullayevin sözlərinə görə, hərracı keçirilən 100 meqavat gücündə Qobustan Günəş Elektrik Stansiyasının da 2026-cı ilin sonuna qədər istismara hazır olacağı proqnozlaşdırılır. Daha bir 100 meqavatlıq stansiyanın isə işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərəcəyi nəzərdə tutulur. Bu layihənin də 2026-cı ilin sonuna qədər reallaşdırılacağı hədəflənir.

Agentlik direktoru qeyd edib ki, adları çəkilən layihələrlə bağlı strateji məsələlər artıq həll edilərək müvafiq müqavilələr imzalanıb və icrası ilə bağlı qarşıya önəmli vəzifələr qoyulub.

# İslamabadda COP29 seminarı

**Pakistanın paytaxtı İslamabadda keçirilən Post-COP29 seminarında bu ölkənin Baş nazirinin iqlim dəyişikliyi və ətraf mühit üzrə koordinatoru Romina Xurşid Alam, Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov və digər vəzifəli şəxslər iştirak ediblər.**




X.Fərhadov çıxışında COP29-un uğurla keçdiyini, çox sayda dünya liderinin Azərbaycana gəldiyini, müzakirələrdə 76 mindən çox insanın iştirak etdiyini diqqətə çatdırıb. R.Alam isə Pakistanın iqlim konfransında texniki və siyasi danışıqlarından söz açaraq, beynəlxalq müşahidəçilərin bu danışıqları yüksək qiymətləndirdiklərini söyləyib. O, Pakistanın tezliklə “yaşıl” enerji ilə əlaqədar yol xəritəsini formalaşdırmaq üçün V20 toplantısına evsahibliyi edəcəyini bildirib.

# Bakı konfransının uğurları müzakirə edilib

**Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev ilə Qlobal Ekoloji Fondun baş direktoru Karlos Manuel Rodriges arasında keçirilən görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında əldə edilən tarixi nəticələr barədə fikir mübadiləsi aparılıb.**



Bu barədə COP29-un “X”sosial şəbəkəsindəki hesabında paylaşım edilib. Məlumata görə, görüş Ər-Riyadda COP16 çərçivəsində keçirilib. Tərəflər, həmçinin iqlim maliyyələşdirilməsi, əməkdaşlığın gücləndirilməsi və torpaqların bərpası üzrə qlobal fəaliyyətlərin stimullaşdırılması, eləcə də quraqlığa davamlılığın artırılması məsələlərini müzakirə ediblər.

# İqlim sammitinin turizmə təsiri

**Dövlət Turizm Agentliyinin (DTA) mətbuat katibi Gülnar Mustafayeva COP29-da iştirak etmək üçün ölkəmizə gələn on minlərlə xarici vətəndaşın Azərbaycanın tarixi, mədəniyyəti, maddi və mədəni-milli irsi ilə, müasir infrastrukturla tanışlığına, onların respublikamızın ekoturizm və aqroturizm kimi yeni sahələrinin geniş potensiala malik olması haqqında məlumatlarının artırılmasına böyük töhfə verdiyini bildirib.**




O vurğulayıb ki, respublikamızda belə bir geniş miqyasda mötəbər sammitin keçirilməsi Azərbaycanın turizm imkanlarının təbliğ edilməsinə və bu istiqamətdə müsbət imicin formalaşdırılmasına müsbət təsir göstərib.

Tədbir zamanı minlərlə xarici media nümayəndəsinin ölkəmizə gəlməsi, həmçinin konfransın dünya mediasının diqqətində saxlanılması Azərbaycanın biznes və işgüzar turizm potensialının tanıdılması üçün geniş imkanlar yaradıb. COP29 kimi tədbirlər beynəlxalq standartlara uyğun xidmətin təşkili üzrə turizm sənayesində, xüsusilə hotelçilik sahəsində təcrübənin formalaşmasına, turizm sənayesi ilə əlaqəli olan kiçik və orta sahibkarlığın inkişafına mühüm töhfələr verib.

G.Mustafayeva vurğulayıb ki, ümumilikdə, bir sıra beynəlxalq tədbirlər kimi, COP29-un ölkəmizdə keçirilməsi turizm sektorunda həm qısamüddətli, həm də uzunmüddətli müsbət təsirlərə malik olur. Belə nüfuzlu konfranslar xidmət keyfiyyətinin artırılması ilə birgə, göstərilən xidmətlərin sayının və çeşidliliyin çoxalmasını şərtləndirməklə turizmi sənayenin inkişafını da sürətləndirir.

Mətbuat katibi sonda bildirib ki, COP tarixində ilk dəfə turizmin COP29-un fəaliyyət gündəliyinə salınması, tematik turizm gününün keçirilməsi, bu mövzuda ilk nazirlər görüşünün təşkili, turizmin iqlim dəyişmələrində rolunu ifadə edən “Turizm Sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə COP29 Bəyannaməsi”nin qəbul olunması kimi əhəmiyyətli məsələlər ölkə və qlobal turizm sənayesinin sürətli inkişafı baxımından təqdirəlayiq hadisələrdir.

# Orta Dəhlizdə daşımalar 68 faiz artıb

**Qazaxıstanın nəqliyyat naziri Marat Kabayev Mangistau bölgəsinin inkişafına həsr olunan müşavirədə cari ilin 10 ayı ərzində Orta Dəhliz üzrə yükdaşımaların həcminin 68 faiz, konteyner daşımalarının 2,7 dəfə artdığını qeyd edib. Qazaxıstan Respublikası hökumətinin mətbuat xidməti isə bu marşrutun dəmir yolu ilə 2,3 milyon ton, dəniz nəqliyyatı ilə 6,3 milyon ton (2023-cü illə müqayisədə 3 faiz çox) yük daşındığını bildirib.**




Ölkənin Baş naziri Oljas Bektenov Orta Dəhlizin inkişafı məqsədilə Mangistau vilayətində aviasiya qovşağının inkişaf etdirilməsinin zəruriliyinə diqqət çəkib. O, Nəqliyyat Nazirliyinə Energetika Nazirliyi və "KazMunayQaz"la birlikdə regiona təyyarə yanacağının birbaşa tədarükünün reallaşdırılmasının, habelə xarici aviaşirkətlərin cəlb olunması ilə yeni istiqamətlərə subsidiyalaşdırılan daxili reyslərin sayının artırılmasının tapşırıldığını qeyd edib. O.Bektenov Aktau Dəniz Limanı azad iqtisadi zonasının genişləndirilməsi üçün potensial investorların cəlbi istiqamətində səylərin gücləndirilməsinin vacibliyinə də diqqət çəkib.

Türkiyə Cümhuriyyəti də Orta Dəhlizin inkişafına hər zaman mühüm önəm verib. Dünya Bankının Direktorlar Şurasının qardaş ölkənin elektrik dəmir yolu nəqliyyatını inkişaf etdirmək səylərini dəstəkləmək üçün 660 milyon ABŞ dolları məbləğində maliyyə dəstəyini təsdiqləməsi də bu məqsədə prioritet yanaşılmasından irəli gəlib.

Bankın məlumatına görə, bu il dekabrın 5-də qəbul edilən kreditin ayrılması ilə bağlı qərar Türkiyənin şərqində, Orta Dəhlizin bir hissəsi olan Divriği–Qars hissəsində dəmir yolu bağlantısının yaxşılaşdırılması məqsədi daşıyır. Layihə dizel qatarlarının elektrik qatarları ilə dəyişdirilməsini və Sivasın Divriği məntəqəsi ilə Gürcüstanla sərhəddə yerləşən Qars arasındakı 660 kilometrlik dəmir yolunun tam elektrikləşdirilməsini və modernləşdirilməsini nəzərdə tutur. Layihənin icrası nəticəsində dörd əyalətin – Sivas, Ərzincan, Ərzurum və Qarsın dəmir yolu ilə birləşəcəyi və marşrut boyunca, təxminən, 600 min sakinin bundan faydalanacağı, həmçinin yerli biznes və kənd təsərrüfatının inkişafının sürətlənəcəyi gözlənilir.

Layihənin icrası başa çatdıqdan sonra dəmir yolu ilə yükdaşıma qabiliyyətinin ildə, təqribən, 750 min tondan 20 milyon tona yüksələcəyi, 2030-cu ilə qədər isə il ərzində 72 min 332 ton karbon emissiyasının qarşısının alınacağı proqnozlaşdırılır. Layihənin ümumi dəyəri 800 milyon ABŞ dolları həcmində qiymətləndirilir.

Orta Dəhlizin inkişafı məsələlərinə bu günlərdə Vyanada İpək yolunun fəaliyyət istiqamətləri mövzusunda keçirilən konfransda da toxunulub. Mərasimdə "Azərbaycan Dəmir Yolları" QSC sədrinin müşaviri Emil Məmmədovun Azərbaycanın bu dəhlizin inkişafındakı rolu və təmsil etdiyi qurumun tranzit yükdaşıma həcminin artırılmasında regional və beynəlxalq əməkdaşlığı genişləndirməsi barədə təqdimatı maraqla qarşılanıb.

QSC-nin rəsmisi Orta Dəhlizin potensialının reallaşdırılması üçün Bakı–Tbilisi–Qars (BTQ) dəmiryol xəttinin inteqrasiyasının əhəmiyyətini, eləcə də BTQ-nin illik 5 milyon ton yük ötürücülük gücü ilə Çindən Avropaya tranzit və ixrac yüklərinin səmərəli daşınması üçün daha qısa və sürətli marşrut təklifini xüsusi vurğulayıb.

Konfransda Avropa logistika operatorları və ekspeditor şirkətlərinin Orta Dəhlizdən istifadəni intensivləşdirməklə regional yükdaşımalar üçün yeni imkanlardan faydalana biləcəkləri bildirilib. Həmçinin tədbir iştirakçılarına Qərbdən Şərqə gələn yük bazasının formalaşması, yüklərin Türkiyə və BTQ vasitəsilə Orta Dəhliz üzərindən daşınmasının mümkünlüyü, eləcə də "Azərbaycan Dəmir Yolları"nın bu istiqamətdə gördüyü işlər haqqında məlumat verilib.

"Azərbaycan Dəmir Yolları"nın Orta Dəhlizin inkişafı üçün gördüyü işlərdən danışan E.Məmmədov ötən il BTQ-nin modernləşdirilməsinin tamamlandığını və marşrutun səmərəli istismarı üçün Gürcüstan tərəfi ilə birgə müəssisə yaradıldığını deyib. Digər birgə müəssisənin isə Orta Dəhlizin inkişafı məqsədilə Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında təsis edildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, "Azərbaycan Dəmir Yolları" Orta Dəhlizin inkişafına daha çox təkan vermək üçün bu ay respublikamızdan Çinə ilk ixrac blok-qatarının yola salınmasını gerçəkləşdirib. 62 ədəd 40 futluq konteynerdən ibarət ixrac blok-qatarının Qazaxıstandan keçməklə yükləri Çinin ən böyük quru limanlarından biri olan Sian Limanına çatdıracağı nəzərdə tutulub. Ümumiyyətlə, cari ilin sonunadək ölkəmizdən Çinə 600 konteyner ixrac yükünün yola salınması planlaşdırılıb.

Konfransda Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və Avropa dəmiryol təşkilatlarının iştirakı ilə bu il Bakıda Avstriya Dəmir Yollarının da təmsil olunduğu Avrasiya Nəqliyyat Marşrutu Beynəlxalq Assosiasiyasının qurulmasına dair dəmiryol administrasiyaları rəhbərlərinin məşvərət görüşünün keçirildiyi, yeni marşrutun əsas hədəfinin Orta Dəhlizin cənub qanadını canlandırmaqla yük həcmini artırmaq olduğu vurğulanıb.

## Ekspert rəyi

**Məhəmməd ƏLİYEV,**
**Azərbaycan Dövlət İqtisad Universiteti biznes və logistika kafedrasının müdiri, dosent**



Orta Dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyədən keçən və Avropa ölkələrinə qədər uzanan beynəlxalq nəqliyyat marşrutudur.

Xatırladaq ki, Asiya ilə Avropanı birləşdirən Orta Dəhliz təşəbbüsü dünyada baş verən gərgin geosiyasi proseslər fonunda irəli sürülüb. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə bu layihə həyata vəsiqə alıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub.

Hazırda Çin–Qazaxıstan sərhədindən başlayan marşrut Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Orta Dəhliz təkcə Azərbaycanın deyil, regiondakı digər dövlətlərin də iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq nəqliyyat layihəsidir.

Hazırda dünyanın ən iddialı iqtisadi proqramı hesab olunan, Çin və Avropanı inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu xətləri, limanlar, boru kəmərləri və digər mühüm infrastruktur vasitələri ilə birləşdirməyi hədəfləyən bu layihə 65 ölkəni və dünya üzrə ümumi daxili məhsulun 40 faizini əhatə edir.

Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və Avropa İttifaqını birləşdirən Orta Dəhliz güclü ticarət alyansı yaradır. Pekin də bu proseslərdə fəal iştirak edir. Çindən Avropaya malların tranzitinin 85 faizi də Qazaxıstandan keçir və bunun əhəmiyyətli hissəsi Xəzər dənizi və Azərbaycan vasitəsilə gerçəkləşir.

Orta Dəhliz Beynəlxalq Assosiasiyası İdarə Heyətinin sədri Nurlan Sauranbayev qeyd edib ki, bu marşrut boyu yerləşən ölkələrdə logistika infrastrukturu rəqabətədavamlı yük daşımalarının tam həyata keçirilməsinə imkan verir. Sözügedən assosiasiyanın məlumatına görə, yük daşımaları 2023-cü ildə 65 faizə (2,7 milyon tona qədər) yüksəlib.

Dünya Bankının proqnozuna əsasən, 2030-cu ilə qədər Orta Dəhlizlə yükdaşımaların həcmi 3 dəfə artacaq. Avropa Komissiyasının vitse-prezidenti Valdis Dombrovskis Almaniyanın "DW" nəşrinə müsahibəsində bildirib ki, Avropa İttifaqı bu marşrutun inkişafı üçün 10 milyard avro investisiya ayırmaq niyyətindədir.

Rusiya – Ukrayna müharibəsi başlayandan sonra Avropa Şərqlə ticarət əlaqələri üçün alternativ nəqliyyat marşrutlarına ehtiyac duydu. Azərbaycan hökuməti ölkənin nəqliyyat infrastrukturunu quraraq qatarların və avtomobillərin tranzit keçidi üçün hər cür şərait yaratdı. Beynəlxalq nəqliyyat marşrutlarının ölkəmizdən keçməsi Azərbaycana təkcə iqtisadi deyil, həm də siyasi dividendlər gətirməyə başladı.

# Səudiyyə Ərəbistanı ilə sərmayə və enerji əməkdaşlığı



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində bir sıra görüşlər keçirib. Bu barədə XQ-yə İqtisadiyyat Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, M. Cabbarovun bu ölkənin investisiya naziri Xalid bin Əbdüləziz Əl - Falihlə görüşü zamanı Azərbaycan və Səudiyyə Ərəbistanı arasında ticarət və investisiyaların təşviqi imkanları müzakirə edilib. Söhbət əsnasında Azərbaycan – Səudiyyə Ərəbistanı iqtisadi əlaqələrinin inkişaf etdiyi, biznes dairələri arasında işgüzar münasibətlərin genişləndiyi vurğulanıb. Tərəflər ölkələrimizin dayanıqlı inkişaf hədəflərinə uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, ticarət və investisiyaların təşviqi imkanlarını müzakirə ediblər.

Səudiyyə Ərəbistanının energetika naziri, şahzadə Əbdül Əziz bin Salman Əl-Səudla keçirilən görüşdə isə ölkələrimizin "yaşıl" enerji gündəliyinin prioritet istiqamətləri, bu sahədə birgə fəaliyyətin uğurlu nəticələri və ölkələrimiz üçün faydaları barədə fikir mübadiləsi aparılıb. Enerji keçidində potensial layihələr üzrə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

Görüşdə bərpaolunan enerjinin səmərəliliyinin, alternativ enerji mənbələrinin enerji sektorunda payının artırılmasının ölkəmizin iqtisadi inkişaf strategiyasında vacib məsələlərdən olduğu diqqətə çatdırılıb. Bu istiqamətdə Səudiyyə Ərəbistanı Krallığı ilə əməkdaşlığa önəm verildiyi qeyd olunub.

# Quruda ilk üfüqi quyu qazılacaq

**"GL Group" şirkəti Azərbaycan tarixində ilk dəfə olaraq quruda yerləşən dərin neft laylarına çatmaq üçün 4400 metr dərinlikdə planlaşdırılmış yanal uzunluğu, təxminən, 400 metrlik üfüqi neft quyusu qazacaq.**



Şirkətin yaydığı məlumatda bildirilir ki, qeyd olunan üfüqi quyunun qazılması Salyan rayonundakı "Kürsəngi" və "Qarabağlı" yataqlarında qazma işlərində yaranmış 14 illik fasiləyə son qoyacaq və həmin yataqlarda 3 yeni mürəkkəb dərin quyunun qazılmasını nəzərdə tutan daha irimiqyaslı qazma təşəbbüsü çərçivəsində yerinə yetiriləcək.

Ötən həftə "GL Group" yerli və beynəlxalq qazma şirkətlərinə qazma xidmətləri üçün tenderin keçirilməsi barədə məlumat verib. Qazma işləri çərçivəsində "GL Group"un Azərbaycanın neft-qaz sektorunda innovasiya və əməliyyat mükəmməlliyinə nail olmaq hədəflərini dəstəkləyən yeni texnologiyalardan istifadə ediləcək.

Bu ilin əvvəlində "GL Group" özünün afilə şirkəti olan "Taghiyev Operating Company" əməliyyat qurumunun istismar etdiyi "Buzovna–Maştağa" və "Qala" yataqlarında 6 yeni quyunun qazma işlərini vaxtından əvvəl, insidentsiz və ətraf mühitə tam təsirsiz şəkildə başa çatdırıb. Həmin quyularda hasilat ilkin proqnozları üstələyib və bu, "GL Group"un əməliyyat səmərəliliyini və mükəmməl nəticələr əldə etmək prinsiplərinə sadiqliyini təsdiqləyib.

"GL Group" Azərbaycanın Salyan rayonunda "Kürsəngi" və "Qarabağlı", Abşeron yarımadasında "Buzovna–Maştağa", "Qala" və "Zirə" də daxil olmaqla 5 neft və qaz yatağında əməliyyatlar aparır. Şirkətlər qrupunun portfelinə "Salyan Oil Limited" və "Taghiyev Operating Company" əməliyyat şirkətləri, həmçinin neft-qaz sənayesində texniki xidmətlər göstərən "GL Technical Services" şirkəti daxildir.

"GL Group" 2024-cü ildə ilk beynəlxalq layihəsinə imza ataraq Türkiyənin Trakya hövzəsində yüksək perspektivli qaz yatağında 100 faiz pay sahibi olan Kanadanın "Gazelle Energy Limited" şirkətinin 25 faiz payını satın alıb.

**"S&P Global Ratings" beynəlxalq reytinq agentliyinin məlumatına görə, Azərbaycanda neft hasilatı (qaz kondensatı daxil olmaqla) 2027-ci ilədək orta hesabla gündəlik 0,58 milyon barel səviyyəsində qalacaq. Növbəti bir neçə il ərzində "Azəri–Çıraq–Günəşli" kimi əsas neft yataqlarının köhnəlməsi səbəbindən yaranan hasilat azalması digərlərindəki kiçik əlavə güclər hesabına kompensasiya ediləcək və ümumi hasilatda müəyyən sabitləşmə baş verəcək.**

# Azərbaycanın qaz hasilatı sabit qalacaq

## *İllik həcm 36-37 milyard kubmetr olacaq*

"S&P Global Ratings"nin qiymətləndirməsinə görə, Azərbaycanda fəaliyyət göstərən xarici neft şirkətləri hasilatdakı azalmanı yavaşlatmaq üçün əlavə investisiyalar yatıracaq. Lakin uzunmüddətli perspektivdə hasilat, çox güman ki, azalmağa doğru davam edəcək. Beynəlxalq reytinq agentliyi, eyni zamanda, proqnozlaşdırır ki, Azərbaycanda kommersiya qaz hasilatı ildə 36–37 milyard kubmetr səviyyəsində sabitləşəcək.



Agentliyin hesabatında Azərbaycanda "Şahdəniz" qaz yatağında hasilatının ikinci mərhələsinin işlənməyə başlandığı, burada "mavi yanacağ"ın 2018-ci ildən etibarən əhəmiyyətli dərəcədə artdığı və 16 milyard kubmetr platosuna çatdığı da bildirilib.

"S&P Global Ratings" analitikləri qeyd edirlər ki, uzunmüddətli perspektivdə Azərbaycanda qaz hasilatını artıra biləcək bir neçə layihə mövcuddur. Bunlara "Abşeron" yatağının ikinci mərhələsi (hasilatın ildə 1,5 milyarddan 5 milyard kubmetrə qədər artırılması), AÇG blokundakı dərin qatlardan hasilat, "Ümid", "Babək" və "Qarabağ" yataqlarının işlənməsi daxildir.

Agentlik hesab edirlər ki, respublikamızın Avropaya qaz ixracını artırması boru kəməri infrastrukturunun daha da genişləndirilməsini tələb edəcək. Belə genişlənmə Azərbaycan və Avropa alıcıları arasında təchiz edilən qazın uzunmüddətli həcmləri və qiymətləri ilə bağlı razılaşmalardan asılı olacaq.

"S&P Global Ratings"nin hesabatının sonunda Azərbaycan hökumətinin bərpaolunan enerji mənbələrinin inkişafını fəal şəkildə təşviq etdiyi vurğulanıb: "Ölkənin günəş, külək və hidroenerji potensialından istifadə planları var. Bundan əlavə, Xəzər regionundan Macarıstan və Rumıniyaya "yaşıl" elektrik enerjisinin ixracına imkan verəcək Qara dənizin dibi ilə enerji kabelinin çəkilişi layihəsi üzərində iş davam edir".

Azərbaycanda bərpaolunan enerji istehsalının əlavə gücləri hazırda qazla istehsal olunan daxili elektrik enerjisinin bir hissəsini əvəz edə və bu da ixrac boru kəməri güclərinin genişləndirilməsi şərtilə Avropaya əlavə qaz həcmlərinin təchizinə gətirib çıxara bilər".

# "Xaçmaz" ES 18 ildə ölkəyə 5 milyard kilovat-saat enerji verib



**Energetika Nazirliyindən redaksiyamıza verilən məlumata görə, "Xaçmaz" Elektrik Stansiyasında (ES) istismara verildiyi tarixdən indiyədək, ümumilikdə, 5,4 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub.**

Qeyd edək ki, 2006-cı il dekabrın 7-də istifadəyə verilən modul tipli "Xaçmaz" ES hər birinin gücü 8,7 meqavat olan 10 qaz porşenli aqreqatdan ibarətdir və ümumi gücü 87 meqavatdır.

Beynəlxalq həyat

# Post-Əsəd dövrü Suriyaya nə vəd edir?

(əvvəli 1-ci səhifədə)

Bazar günü səhər hökumət əleyhinə qüvvələr paytaxtı döyüşmədən tərk edən Suriya ordusunun bölmələrinin müqaviməti ilə qarşılaşmadan Dəməşqə daxil oldular. Suriya ordusunun bir hissəsi üsyançıların tərəfinə keçdi, digər hissəsi qonşu İraqa qaçdı. Doğrusu, prezident Bəşər Əsədin hakimiyyətinə belə qəfil son qoyulması hamı üçün sürpriz oldu. Noyabrın 27-dən etibarən İdlib vilayətindən hücuma keçən suriyalı yaraqlıların bir-birinin ardınca vilayətlərə nəzarəti inamla ələ keçirmələrinə baxmayaraq, son ana qədər Suriya qoşunlarının islamçı üsyanı lokallaşdıra və rejimin süqutunun qarşısını ala biləcəyinə ümid var idi. Bu illüziya Suriya Müdafiə Nazirliyinin rəsmi açıqlamaları ilə də dəstəklənirdi.

Suriyalılar da ordu komandanlığına inanırdılar. Ancaq bu arxayın mesajlar bazar günü ölkə sakinlərinin oyandığı yeni reallıq tərəfindən tez bir zamanda təkzib edildi. İnformasiya məkanından itən prezident Əsədin harada olması sualının cavabsız qalması da panikanı daha da artırdı. Bir qədər sonra "Reuters" agentliyi mənbələrinə istinad edərək Əsədin təyyarə qəzasında həlak ola biləcəyi versiyasını irəli sürdü. Bir neçə saat ərzində Suriya prezidentinin harada olduğu naməlum qaldı və yalnız axşam saatlarında Rusiya xəbər agentlikləri Kremldəki mənbəyə istinadən Bəşər Əsədin ailəsilə birlikdə Moskvaya gəldiyi barədə xəbər yaydılar.

Suriyada hakimiyyətin iflic vəziyyətində baş nazir Məhəmməd Qazi əl-Cəlali təşəbbüsü ələ aldı. O, Suriyanın ali rəhbərliyinin baş verənləri şərh etməyə qadir olan və hakimiyyətin keçidi prosesinə başlamaq qabiliyyətini nümayiş etdirə bilən yeganə nümayəndəsi oldu. Prezidentin, eləcə də müdafiə naziri Əli Mahmud Abbasi və xarici işlər naziri Bassam Sabbaqinin harada olduğunu bilmədiyini vurğulayan Məhəmməd Qazi əl-Cəlali şəxsən ölkəni tərk etmək niyyətində olmadığını diqqətə çatdırdı. Onun bir neçə digər nazirlə birlikdə Dəməşqə daxil olan "Həyat Təhrir əş-Şam" silahlı qruplaşmasının yaraqlılarının rəhbərliyi ilə artıq əlaqə yaratdığı bildirilir. Suriya baş nazirinin bəyanatından belə çıxır ki, ölkədə azad seçkilər keçirilməli, bunun nəticəsində yeni hakimiyyət orqanları formalaşdırılmalıdır.

Daha sonra Suriya müxalifəti adından müvəqqəti hökumətin rəhbəri elan olunmuş Əbdürrəhman Mustafa ayrıca bəyanatla çıxış etdi. "Bu gün bizim üçün xüsusi gündür. Bu gün Suriyanın yeni doğulduğu gündür. Bundan sonra bizim mübarizəmiz yeni Suriyanın qurulmasına yönələcək",– deyən Mustafa əlavə etdi ki, ən mühüm vəzifələri "dövlət institutlarının qorunması və mülki şəxslərin müdafiəsi" olacaq. Eyni zamanda, müxalifət nümayəndələri prezident Əsədin dövründə dövlət orqanlarında çalışan məmurları təqib etməyəcəklərini bildirirlər. İslamçıların əməliyyat qərargahının məlumatına görə, Suriyadakı inzibati obyektlər yeni hakimiyyətlər formalaşana qədər əvvəlki kimi maneəsiz fəaliyyət göstərəcək. Ancaq hökuməti devirən qüvvələrin mötədil çıxışlarına baxmayaraq, Dəməşqdə və digət şəhərlərdə talanların qarşısını almaq mümkün olmadı.

Ölkədə Rusiya hərbçilərinin mövcudluğuna baxmayaraq, prezident Əsədin hakimiyyəti iki həftədən az müddətdə çökdü. Yaxın vaxtlara qədər İran, Suriya ilə qonşu Livanda yerləşən "Hizbullah" və regiondakı digər İranpərəst birləşmələr də prezident Əsədə təsirli xarici dəstək qrupu kimi görünürdülər. Lakin öz ordusunun gözlənilmədən müqaviməti davam etdirməkdən imtina etdiyi bir şəraitdə dost xarici qüvvələr ciddi kömək göstərməyin mənasızlığını anladılar. Bu, anti-hökumət qüvvələrinə əməliyyatlarını yüngül bir gəzintiyə çevirməyə imkan verdi.





Bəs bundan sonra necə olacaq? Postəsəd dövrü Suriya xalqına və regiona nə vəd edir? Suriyanın ərazi bütövlüyü qorunacaqmı? Türkiyə bildirir ki, Suriyanın ərazi bütövlüyü qorunmalıdır. Türkiyənin xarici işlər naziri Hakan Fidan Dohada keçirdiyi mətbuat konfransında dedi ki, Suriya xalqı ölkəsinin gələcəyini yenidən formalaşdıracaq. O, diqqətə çatdırdı ki, Türkiyə Suriyanın suverenliyinə və ərazi bütövlüyünə çox əhəmiyyət verir. Nazir onu da bildirdi ki, Türkiyə Suriyanın yenidən inşası üçün çalışacaq. Eyni zamanda, H.Fidan bütün aktorları diqqətli və sakit hərəkət etməyə çağırdı: "Bölgədə sabitsizliyi daha çox davam etdirməmək lazımdır".

Siyasi icmaçılar bildirirlər ki, Suriyada hakimiyyətin süqutu Rusiya və İranın regional siyasətinə ciddi zərbə vurdu. Rusiya KİV-i yazır ki, Ukrayna böhranının ən qızğın vaxtında Bəşər Əsədin devrilməsi Rusiyanın qarşı yeni cəbhənin açılması təhlükəsini yaratdı. Eyni zamanda, Suriyadakı hərbi bazalarını itirməsi Rusiyanın regional təsirini xeyli zəiflətdi. Tartus limanındakı hərbi donanmasını itirməsi isə Moskvanın Afrikaya olan dəniz qapısını bağlayacaq. TASS agentliyi xəbər verir ki, silahlı dəstələr Tartus və Cebla ərazilərindədir, ancaq Rusiya bazalarına müdaxilə etmirlər. Amma şübhə yoxdur ki, Rusiyanın bölgədəki mövcudluğu Suriyanın yeni sahiblərinin və hökumətin devrilməsində fəal rol oynayan aktorların qərarından asılı olacaq. Hərbi ekspert, istefada olan general-leytenant Yuri Netkaçev düşünür ki, ABŞ və bir sıra digər ölkələr Rusiya qoşunlarının Yaxın Şərqdə olmasına qarşıdır. Hərbi ekspertin sözlərinə görə, Rusiyanın Suriyadakı əsas müttəfiqi İranın da zəiflədiyi aydın oldu: "Tehrandan Aralıq dənizinə gedən "şiə yolu" faktiki olaraq məhv edildi. Bu isə Rusiya üçün o qədər də yaxşı amil deyil".

Ancaq ərəb dünyasında ciddi müttəfiqini itirən İran bildirir ki, Suriyanın yeni hakimiyyət orqanları ilə dialoqa hazırdır. "Reuters" İrandakı mənbəsinə istinadən Tehranın üsyançıların rəhbərliyindəki bəzi qruplarla qarşılıqlı əlaqə yaratmaq üçün birbaşa kanallar yaratdığını yazır. İran hakimiyyətinin adı açıqlanmayan nümayəndəsinin sözlərinə grөə, "Tehran düşmən trayektoriyasını qarşısını almaq üçün Suriyanın yeni rəhbərliyi ilə qarşılıqlı fəaliyyətə hazırdır". İranın "düşmən trayektoriyası" ilə mübarizədə Suriyanın yeni sahiblərinin Tehrana kömək edəcəklərini demək çətindir. Bundan başqa, müvəqqəti hökumətin İranın Suriyadakı təsirini saxlamasına razılıq verəcəyi də çətin görünür. Onа görə ki, hazırda Suriyada söz sahibi olan "Həyat Təhrir əş-Şam" qruplaşmasının liderləri prezident Əsədin müttəfiqlərinə yaxşı münasibət bəsləmirlər.

Suriyadakı hadisələrdən ən çox qazanclı çıxan ölkənin Türkiyənin olduğu bildirilir. Analitiklərin sözlərinə görə, Dəməşqin ələ keçirilməsindən bir neçə saat əvvəl Dohada keçirilən son görüşdə Rusiya və İranın xarici işlər nazirləri Ankaranın Suriyadakı təsirini etiraf etməyə məcbur oldular. Almaniyanın "Bild" nəşri də bundan sonra Suriyada heç bir planın Türkiyəsiz həyata keçirilə bilməyəcəyini vurğulayır. Bunu bölgədə nüfuz uğrunda vuruşmağa hazırlaşan aktorlar da yaxşı anlayırlar. Bununla belə, bəzi siyasi ekspertlər iddia edirlər ki, Türkiyə və ABŞ da daxil olmaqla heç bir ölkə yeni şərtlər daxilində Suriyada vahid lider ola bilməyəcək. Buna görə də, Suriyanı qarşıda daha ciddi sınaqlar gözləyir, çünki ölkənin gələcəyi böyük aktorların strateji məsələlərdə razılığa gəlib-gəlməyəcəklərindən çox asılı olacaq.

*Səbuhi MƏMMƏDOV*
*XQ*



# Leyla Əliyevanın tibb ocağına hədiyyəsi

**Dekabrın 9-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunu və Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunu (6 saylı doğum evi) ziyarət edib.**



Tibb ocaqlarının fəaliyyəti ilə tanış olan Leyla Əliyeva burada müalicə alan uşaqların valideynləri ilə görüşüb. Səhiyyə naziri Teymur Musayev Heydər Əliyev Fondunun vitse-prezidentinə bu elmi-tədqiqat institutlarında yaradılmış şərait barədə məlumat verib.

Leyla Əliyeva tərəfindən hər iki tibb müəssisəsinə yüksəktezlikli süni tənəffüs cihazları, küvezlər və digər müasir tibbi avadanlıqlar hədiyyə olunub.

# "Yenidən doğulmuş gözəllik"





**Dekabrın 9-da Heydər Əliyev Mərkəzində nigeriyalı heykəltaraş Dotun Populanın (DotunPopoola) "Yenidən doğulmuş gözəllik" (Reclaimed Beauty) adlı fərdi sərgisinin açılışı olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.**

Sərginin açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov deyib ki, Afrika incəsənəti dünyada çox məşhurlaşıb. Bildirilib ki, Heydər Əliyev Mərkəzində Dotun Populanın 30-a yaxın əsəri sərgilənir və bu əsərlər 2025-ci ilin oktyabrınadək Mərkəzdə təqdim olunacaq: "Əminəm ki, Heydər Əliyev Mərkəzinə gələn qonaqlar bu əsərləri çox bəyənəcəklər".

Heydər Əliyev Mərkəzində belə bir sərginin açılmasından məmnunluğunu ifadə edən nigeriyalı heykəltaraş Dotun Popula sərgidə heykəltaraşlıq nümunələrinin və digər əsərlərinin nümayiş olunduğunu söyləyib: "Təkrar emal olunmuş metal hissələrdən düzəltdiyim heykəllər sosial şəbəkələr üçün platforma rolunu oynayır. Mənim bədii yanaşmamın əsasında incəsənətin transformasiyada katalizator rolu oynadığını, sosial-mədəni landşaftın öyrənilməsi üçün bir alət olduğunu, yenidənqurmada vasitəçiyə çevrildiyini, ekoloji deqradasiyaya etiraz forması kimi çıxış etdiyini ifadə edən inamım dayanır".

Sonra tədbir iştirakçıları Mərkəzin foyesində və parkında sərgilənən eksponatlara baxıblar.

Heydər Əliyev Mərkəzində ətraf mühitin qorunmasına çağırış edən MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinə və "Öz töhfəni ver!" sərgisinə də baxış keçirilib.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) günlərində fəaliyyətə başlayan MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır. Ekspozisiyada rəqəmsal instalyasiya, rəsm, qrafika və heykəltaraşlıq nümunələri daxil olmaqla, ümumilikdə 120-dən çox əsər təqdim olunur.

Dotun Populanın sayca 7-ci fərdi sərgisi Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili"nə təsadüf edir. Heykəltaraş əsərlərini ənənəvi materiallardan deyil, sənaye tullantılarına çevrilmiş metal hissələrdən hazırlayır. Xatırladaq ki, Dotun Populа müxtəlif incəsənət sərgilərində Nigeriyanı təmsil edib.

**XQ**

# "Türk filologiyası" jurnalının yeni sayı

**Bakı Dövlət Universitetinin "Türk filologiyası" jurnalının növbəti sayı çapdan çıxıb. Müasir Türk filologiyasının müxtəlif problemlərinin araşdırılmasına həsr edilən nəşrdə filologiya, sahələrində və milli mətbuatda çalışan 12 alim və tədqiqatçının məqalələri yer alıb.**

Professor Rüfət Rüstəmovun "Qədim türk dövlətləri", professor Mahirə Hüseynovanın "Mahmud Kaşğarinin "Divan"ında atalar sözləri və məsəllərin struktur-semantik xüsusiyyətləri", dosent Könül Həsənovanın "Mahmud Kaşğarinin "Divan"ından şeir mətnlərinin etnopoetik müstəvidə təhlili", dosent Nigar İsmayılzadənin "Türk ədəbiyyatında təsəvvüf anlayışı" və digər müəlliflərin məqalələri yalnız mövzu baxımından deyil, həm də elmi dəyər və aktuallıq baxımından əhəmiyyətli tədqiqat işləridir.

Məqalələr Türk dünyasının tarix və mədəniyyətinin elmi tədqiqi və təhlili baxımından mühüm önəm daşıyır, türk dünyasının zəngin irsini daha dərindən dəyərləndirməyə kömək edir. Bu əsərlər həm akademik ictimaiyyət, həm də Türk mədəniyyətinə maraq göstərən hər kəs üçün əvəzsiz qaynaqlardır. Jurnalda qəzetimizin əməkdaşı, Əməkdar jurnalist Namiq Əhmədovun "Türkiyə–Rusiya münasibətləri Azərbaycan mətbuatında" adlı elmi məqaləsi də dərc edilib.

"Elm və Təhsil" nəşriyyat-poliqrafiya müəssisəsində çap olunan məcmuə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasında dissertasiyaların




əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin filologiya elmləri bölməsinə daxil edilib. Toplunun baş redaktoru filologiya elmləri doktoru, professor Rüfət Rüstəmov, redaktor müavini filologiya elmləri doktoru, professor Əsgər Rəsulovdur.

*N.QƏDİMOĞLU*
*XQ*

Nəbi Xəzri – 100

# “Şeir mənim üçün bir kainatdır”

**“İstiqlal” ordenli mərhum Xalq şairi Nəbi Xəzri, eyni zamanda, nasir, dramaturq, publisist, tərcüməçi, ssenarist kimi tanınıb. İctimai xadim kimi də məhsuldar fəaliyyət göstərib və Dövlət mükafatları laureatı, Əməkdar incəsənət xadimi olub.**



Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Prezidentinin 9 sentyabr 2024-cü il tarixli sərəncamında onun Azərbaycan ədəbiyyatını yeni poetik obrazlarla zənginləşdirən söz ustası olduğu bildirilib. Sənədin preambulasında yazılıb: “Çoxcəhətli yaradıcılığı boyu sənətkar insanın mənəvi aləminin saflığını geniş lirik-epik lövhələrlə tərənnüm etmiş və daim ülvi ideallarla yaşamağa çağırmışdır. Azərbaycan xalqının tarixi-mədəni yaddaşının bir çox səhifələri onun yüksək vətəndaşlıq qayəsindən yoğrulan əsərlərində öz bədii təcəssümünü tapmışdır. Təbiət gözəlliklərinə vurğunluq və doğma torpağa bağlılıq hissləri aşılayan Nəbi Xəzri poeziyası dərin lirizmi, ifadə tərzi və həyata fəlsəfi münasibəti ilə səciyyələnir. Nəbi Xəzrinin dram əsərləri Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş və müəllifinə şöhrət qazandırmışdır. Nəbi Xəzri, eyni zamanda, ictimai xadim kimi səmərəli fəaliyyət göstərmiş, Azərbaycan mədəniyyəti və incəsənətinin xarici ölkələrdə təbliği istiqamətində təqdirəlayiq işlər görmüşdür”.

Məktəbdə oxuduğu vaxt “Böyüyəndə kim olacaqsan?” inşa yazısında Nəbi Babayev “Mən şair olacağam” – deyə qeyd edib. Onun bu fikri sinifdə gülüşlə qarşılansa da, sonralar istəyi özünü doğruldub: 20 yaşında ikən Nəbinin bir müsamirədə oxuduğu “O cavanın yaylığı” və “Söz” şeirlərini dinləyən Səməd Vurğun hələ heç kitabı çıxmamış gənc şairi Yazıçılar İttifaqına üzv qəbul etdirib.

O, Xırdalanda doğulsa da, 20-25 kilometrlikdə qərarlaşan Sumqayıta qəlbən bağlı idi. Monumental “Sumqayıt səhifələri” poeması şairi bu şəhərə daha da doğmalaşdırmışdı. Poemada Səməd Vurğunla Cəfər Cabbarlının xəyali görüş səhnəsi var. Onlar Sumqayıtdakı quruculuq işlərindən danışırlar və gənc bir şairin bu barədə əsər yaratdığı söyləyir. Səməd Vurğun onun kimliyini belə bildirir:

**Nəbi Babayevdi mən görən zaman,**
**İndi Nəbi Xəzri olub, deyirlər...**

Şairin bağ evi Xəzərin Sumqayıta aid sahilində – Corat ərazisində olub. Otağının pəncərələrini açıq qoyurdu ki, əsən meh və xəzri dənizin ətrini içəri yaysın. Şairin “Xəzri” təxəllüsünü götürməsi də elə onun bu sevgisindən yaranıb. 1982-ci ildə Sumqayıtın fəxri vətəndaşı adına layiq görülməsi isə gənclik şəhərinin əziz şairə sevgisinin təzahürü olub. Corat qəsəbəsində Nəbi Xəzrinin adını daşıyan abad bir küçə də var.

**Sumqayıt, əzizim, gözlərin aydın,**
**Sənin hər addımın böyük hünərdir.**
**Deyirəm, bəlkə də sən olmasaydın,**
**Yer üzü nə qədər boş görünərdi...**

Orta məktəbi bitirib əmək fəaliyyətinə başlayan Nəbi Xəzri 1942–1943-cü illərdə İkinci Dünya müharibəsində arxa cəbhədə iştirak edib, ordudan tərxis olunduqdan sonra isə “Kommunist” (indiki “Xalq qəzeti”) redaksiyasında korrektor və Azərbaycan radiosunda diktor vəzifələrində çalışıb. “Çiçəklənən arzular” adlı ilk şeirlər kitabı 1950-ci ildə çap edilib. O, Azərbaycan və Leninqrad Dövlət universitetlərində, Maksim Qorki adına Ədəbiyyat İnstitutunda oxuyub. Sonra Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında ədəbi işçi olub. Azərbaycan Yazıçılar İttifaqının katibi, Dövlət Teleradio Komitəsi sədrinin, mədəniyyət nazirinin müavini vəzifələrində işləyib. 1974-cü ildən etibarən Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin Rəyasət Heyətinə sədrlik edən Nəbi Xəzri daha sonra “Azərbaycan Dünyası” Beynəlxalq Əlaqələr Mərkəzi adı altında fəaliyyət göstərən həmin qurumun prezidenti olub.

Onun öz müasirlərinin, eləcə də tarixi şəxsiyyətlərin həyatından bəhs edən, lirik-epik lövhələrlə zəngin poemaları mövzusu, emosionallığı, orijinal üslubu ilə seçilir. “Sumqayıt səhifələri” ilə bərabər, “Günəşin bacısı”, “Xatirələr”, “Təmiz ürək”,“Kiçik təpə”, “İki Xəzər”,”Ana”, “Bacı”, “Əfsanəli yuxular”, “Şəhidlər və şahidlər”, “Mənim babam baxan dağlar”, “Peyğəmbər”, “Atillanın atlıları”, “Salatın” və s. poemaları bu qəbildəndir. Adlarından da göründüyü kimi, bu əsərlərdə Azərbaycanın qədim və müasir qəhrəmanlıq salnaməsi (Burla Xatundan tutmuş, Atilla mərhələsindən, Peyğəmbər dövründən, Qarabağ şəhidi, Milli Qəhrəman, jurnalist Salatına qədər), inam və inancı, mənəviyyatı, bir sözlə, azərbaycançılıq dünyagörüşü öz bitkin poetik əksini tapıb.

Görkəmli şairin şeir və poemaları dünya xalqlarının dillərinə tərcümə edilərək nəşr olunub, onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra nümunələri ilə tanış olmaq imkanı əldə edib.

**Şairin qəlbində min bir dilək var,**
**Çələng toxumağa gül var, çiçək var.**
**Nə qədər dünyada sevən ürək var,**
**Mənim ürəyimdir, mənim ürəyim.**

Şairin sevgi lirikası hər zaman könülləri oxşayıb:

**Bizik bu dünyaya səninlə şərik,**
**Bizsiz nə qış gülər, nə də ki bahar.**
**Həyatda hər şeyi bölə bilərik,**
**Amma bölünməyən bir sevgimiz var...**

Nəbi Xəzri şeirləri məşhur bəstəkarların da diqqətini cəlb etmiş, onun lirikasına müraciət etmələri üçün zəmin yaratmışdır. “Azərbaycan”, “Dərələr”, “Ağ çiçəyim”, “Səhər-səhər”, “Mavidir”, “Gələrmi, gəlməzmi”, “Pəncərəmə qondu çiçək”, “Sən danışanda”, “Çinar”, “Nar ağacı, nar çiçəyi”, “Gənclik mahnısı” və digər məşhur mahnılar tanınmış sənət ustalarının – Müslüm Maqomayev, Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Anatollu Qəniyev, Məmmədbağır Bağırzadə, Brilyant Dadaşova, Yaqut Abdullayeva və digərlərinin ifalarında səslənmişdir. İndi də repertuarlarda mühüm yer tutan bu əsərlər Azərbaycan musiqi mədəniyyətinin incilərə sırasındadır.

**Əgər ki, yıxılsam, çinar göstərin,**
**Mən ona söykənib arana baxım.**
**Gözlərim görməsə, Göy gölü verin,**
**Mən onun gözüylə cahana baxım.**
**Hər yerdə, həmişə sənsən gümanım.**
**Canım-gözüm mənim, Azərbaycanım!**

Nəbi Xəzri 2007-ci ildə dünyasını dəyişib. Bu yaxınlarda “Qanun” nəşriyyatının “Azərbaycan poeziyası. Seçmə şeirlər” adlı yeni layihəsində Xalq şairinin oğlu Arzu Babayevin seçimi əsasında onun yaradıcılığından incilərin kitab halında təqdim edilməsi isə bir daha görkəmli söz ustasının poeziyasının yaşarı olduğunu dəlalət edir.

*Əli NƏCƏFXANLI*
*XQ*

---

AMEA-da təqdimat

# Nazim Hikmət və Türk dünyası

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda Ərzincan Binəli Yıldırım Universitetinin türk dili və ədəbiyyatı kafedrasının professoru Ali Kafkasyalının müəllifi olduğu “Böyük türk şairi Nazim Hikmət və Türk dünyası” kitabının təqdimat mərasimi keçirildi.**



AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli kitab və müəllif haqqında ətraflı məlumat verdi, Azərbaycan və türk dillərində nəşr edilmiş kitabda şair, dramaturq, romançı və memuar ustası kimi dünya ədəbiyyatında tanınan Nazim Hikmətin həyat və yaradıcılığının dərindən araşdırıldığını, şair haqqında dəyərli düşüncələrin qələmə alındığını qeyd etdi.

Təqdimat mərasimində çıxış edən Türkiyənin Ərzincan Binəli Yıldırım Universitetinin Sosial Elmlər İnstitutunun direktoru Nejdət Tozlu, professor Qəzənfər Paşayev, fəlsəfə doktorları Məti Osmanoğlu, İsmayıl Umudlu və digər çıxışçılar Nazim Hikmətin yaradıcılığından, siyasi düşüncələri üzündən dəfələrlə həbsindən və yetkin həyatının böyük hissəsini həbsdə, ya da sürgündə keçirməsindən danışdılar. Qeyd edildi ki, adı XX əsrin ən sevilən şairləri arasında yer alan şairin şeirləri ellidən çox dilə çevrilib, əsərləri bir çox mükafatlara layiq görülüb. Şeirləri qadağan edilən və həyatı boyunca yazdıqlarına görə 28 il həbs cəzası almış Nazim Hikmət İstanbul, Ankara, Çankırı və 12 il Bursa həbsxanalarında həbsdə qalıb. Nazim Hikmət poeziyası Türkiyədə qadağan edilib, baxışlarına görə Türkiyə vətəndaşlığından məhrum edilib, amma ölümündən 46 il sonra Türkiyə dövlətinin qərarı ilə 5 yanvar 2009-cu il tarixli qərarı ilə bəraət alıb. 1951-ci ildən SSRİ-də yaşayan Nazim Hikmət 1963-cü il iyunun 3-də Moskva şəhərində ürək tutmasından vəfat etmiş və “Novo Deviçye” qəbiristanlığında dəfn olunub.

Sonda Ərzincan Binəli Yıldırım Universitetinin Türk dili və ədəbiyyatı kafedrasının professoru Ali Kafkasyalı çıxış edərək ünvanına səslənən dəyərli fikirlərə, ona olan səmimi münasibətə, qonaqpərvərliyə, kitabının yüksək səviyyədə təqdimat mərasiminin keçirilməsinə görə AMEA-nın rəhbərliyinə, çıxışçılara, əməyi olan insanlara minnətdarlığını bildirdi.

*XQ*

---

Möhlət Müslümov – 70

# “Tarçalan simi gözlər...”

**Beynəlxalq Muğam Mərkəzində ustad tarzən, pedaqoq, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Möhlət Müslümovun 70 illik yubileyi qeyd olunub.**



Sözlü-nəğməli mərasimdə mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov, Azərbaycan Milli Konservatoriyasının prorektoru, professor Lalə Hüseynova, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, tarzən Əkrəm Məmmədli çıxış edərək yubilyarın sənət yolundan, musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərindən söz açıblar.

Bildirilib ki, tarın tembrinin oxşarı olsa da, eynisi olmadığı kimi, Möhlət Müslümovun da ifaçılığı bənzərsizdir. O, ölkəmizdə tarzənlik sənətinin yaşadılmasına sanballı töhfələr verməklə yanaşı, xaricdə də musiqi mədəniyyətimizi layiqincə təmsil edib. “Xaric segah”ın ustad ifaçısı kimi tanınan, digər ifaları da böyük heyranlıq doğuran sənətkarın xarici ölkələrdə 20-dən çox kompakt diski işıq üzü görüb. O həm də Qərb bəstəkarlarının böyük əksəriyyətinin əsərlərini tarda ifa edib.

Beynəlxalq Muğam Mərkəzinin direktoru, Əməkdar artist Sahib Paşazadə deyib ki, tarın ən gözəl ifaçıları sırasında yer tutan Möhlət Müslümov sənəti, ifaçılıq üslubu ilə xalqın sevgisini qazanıb. 30 ildən artıq rəhbərlik etdiyi Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblı ilə musiqi sənətinin inkişafına əvəzsiz töhfələr bəxş edib. Azərbaycan Milli Konservatoriyasında muğam kafedrasının professoru kimi illərdir topladığı təcrübəni tələbələri ilə bölüşərək yeni ifaçılar nəslinin yetişdirilməsi istiqamətində yorulmadan çalışır.

Çıxışlardan sonra tədbir Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının müşayiətində geniş konsert proqramı ilə davam edib.

*XQ*

---

Beynəlxalq Mahmud Kaşğarlı konfransı

# Türkologiyanın qədim qaynağı




**Odlar Yurdu Universitetində ADPU Türkoloji Mərkəzi, Mahmud Kaşğarlı adına Beynəlxalq Fond, AMEA Dilçilik İnstitutu, Türkiyənin İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun – İKSAD-ın təşkilatçılığı ilə “Mahmud Kaşğarlı: II beynəlxalq elm, mədəniyyət və təhsil konfransı” keçirildi.**

Mahmud Kaşğarlının “Divanü lügətit-türk” əsərinin 950 illiyi münasibətilə təşkil edilən beynəlxalq məclis Kaşğarlının həyatını və irsini araşdırmağa olan marağı göstərməklə yanaşı, türk xalqlarının ümumi tarixinin, mədəniyyətinin və dil birliyinin önəmini də vurğuladı.

Mahmud Kaşğarlı adına Beynəlxalq Fondun rəhbəri, deputat Cavanşir Feyziyev, AMEA Dilçilik İnstitutunun direktoru Nadir Məmmədli, İKSAD-ın Azərbaycan nümayəndəliyinin rəhbəri Əlvan Cəfərov və digər çıxışçılar qeyd etdilər ki, Mahmud Kaşğarlının “Divanü lügətit-türk” əsəri təkcə dilçilik və etimologiya baxımından deyil, həm də türkdilli xalqların sosial və mədəni həyatını öyrənmək üçün misilsiz bir mənbədir. Kaşğarlının bu əsəri türk dilinin müxtəlif dialektlərini, fərqlərini və oxşarlığını əks etdirməklə yanaşı, türk xalqlarının mədəniyyətini, tarixini və coğrafiyasını əhatə edir. Bu baxımdan əsərin 950 illiyi münasibətilə keçirilən beynəlxalq konfrans türk dünyasının dil və mədəniyyətinə olan marağı daha da artırır və bu irsin tədqiqinə yeni bir impuls verir.

Konfransda ADPU Türkoloji Mərkəzinin nəşri “Mahmud Kaşğarlı” beynəlxalq elmi jurnal da təqdim olundu. Jurnal ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynovanın təsisçiliyi və baş redaktorluğu ilə nəşr edilir və 2 sayı işıq üzü görüb.

Rəsmi hissədən sonra konfrans bölmələrdə işini davam etdirdi.

*XQ*

---

# “Boni”nin macəraları

**Bakı Gənclər Mərkəzində “Heyo Media Group”un ərsəyə gətirdiyi “Boni” filminin təqdimatı keçirilib.**

Filmin layihə rəhbəri və quruluşçu rejissoru Heydər Vüqaroğlu, rejissoru Elnur Hüseynov, baş prodüseri Elnarə Rəcəbli, ssenari müəllifləri Mehriban Qaziyeva və Elnur Hüseynovdur. Ekran işinin əsas məqsədi böyüklər və kiçiklər arasında mərhəməti, yardımlaşmanı artırmaq, ailədə və cəmiyyətdə uşaqların düzgün tərbiyə olunmasıdır.

Filmin rejissoru, Əməkdar artist Elnur Hüseynov XQ-ya danışdı:

– Bu, “Heyo Media Group”un ərsəyə gətirdiyi 2-ci uşaq filmidir. Birinci film “Nağıl kimi” adlanır. Keçən il o filmin təqdimatını etdik. İkinci filmimiz isə “Boni” adlı itin itməsi və axtarışı ilə başlayır. Sonra filmdə bir-birinin ardınca ibrətamiz və maarifləndirici səhnələr nümayiş etdirilir. Film uşaqlara bir-biri ilə möhkəm dost olmaq, həmyaşıdlarına və özündən böyüklərə mehriban münasibət göstərmək və digər yüksək insani keyfiyyətlər aşılayır. Bu cür tərbiyəvi əhəmiyyətə malik uşaq filmlərini çəkməkdə davam edəcəyik. Bütün kino işçilərini, rejissorları bu prosesdə əməkdaşlıq etməyə dəvət edirəm.

Filmdə xalq artistləri Yasin Qarayev, Nübar Novruzova, əməkdar artistlər İlham Əsədov, Elnur Hüseynov, aktyorlar Zemfira Əbdülsəməd, Ədalət Əbdülsəməd, Elşən Şıxəliyev, Gülər Ləzgiyeva, Anar Seyfullayev, Ramil Məmmədov, eləcə də Bakı məktəbliləri və bağça uşaqları iştirak edirlər.

*Fidan SALMANOVA,*
*Elşən AĞALAROV*
*XQ*



Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 272 (30676) 10 dekabr 2024-cü il, çərşənbə axşamı

# Qarabağ Zəfərinin şanlı salnaməsi

## *Bakı Şəhər İcra Hakimiyyətində kitab təqdimatı*



**Bakı Şəhər İcra Hakimiyyətində tanınmış tarixçi-alimlər, Milli Məclisin deputatları, elm, mədəniyyət və din xadimləri, jurnalistlər, Vətən müharibəsi veteranları və qazilərin iştirakı ilə "Vətən müharibəsi tarixi. Azərbaycanın ərazi bütövlüyünün bərpası – Şəxsiyyət faktoru" adlı yeni kitabın təqdimatı keçirilib.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Azərbaycan Prezident İlham Əliyev tərəfindən yaradılan iqtisadi-siyasi modelindən danışıb.

Sonra kitabın təqdimatı olub. Qeyd edilib ki, Bakı Şəhər İcra Hakimiyyətinin AMEA-nın Tarix İnstitutu ilə birgə hazırladığı, Vətən müharibəsinə həsr edilmiş əvvəlki kitabın davamı kimi nəşr edilən yeni kitab 44 günlük müharibədən keçən dövr ərzində Azərbaycanda baş verən mühüm hadisələrə həsr olunub.

Kitabda birgünlük antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyinin bərpası, Xankəndi, Ağdərə, Əsgəran və Xocavənddə Dövlət Bayrağımızın ucaldılması, Xankəndidəki tarixi hərbi parad, qısa zamanda işğaldan azad edilən ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işləri, yeni infrastrukturun yaradılması, Böyük Qayıdış Proqramına uyğun olaraq keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı kimi mühüm tarixi hadisələr öz əksini tapıb.

Təqdimat mərasimində çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova və digərləri yeni kitabın əhəmiyyətini vurğulayıblar.

**XQ**

## Güləşçilərimizin Qazaxıstan qələbəsi

**Qazaxıstanın Karaqanda şəhərində güləş üzrə ənənəvi yarışda Azərbaycan idmançıları uğurla çıxış ediblər.**



Sovet İttifaqı Qəhrəmanı Nurken Abdirovun xatirəsinə keçirilən turnirdə ölkəmizi təmsil edən sərbəst güləşçilər Nürəddin Novruzov (61 kq) və Abdulrəhman İbrahimov (65 kq) bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışda Qazaxıstan, Azərbaycan, Özbəkistan və Qırğızıstandan 500-dən artıq idmançı mübarizə aparıb.

## "2024-cü ilin ən yaxşıları" kimlər olacaq?

**Gənclər və İdman Nazirliyi 2024-cü ilin ən yaxşıları seçiminin sosial media mərhələsinə start verib.**

AZE
GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ

Sorğu 2 mərhələdə keçirilir. İlk olaraq səsvermə idman federasiyaları və jurnalistləri (hər KİV-dən 1 nəfər), sosial media izləyiciləri arasında aparılır. İkinci mərhələdə isə Gənclər və İdman Nazirliyi yanında xüsusi komissiya üzvləri səs verəcəklər. Təqdim edilən hər nominasiya üzrə 5 namizədə səs verilir. Ümumi yekuna əsasən, ən çox səs toplamış ilk 3 namizəd qalib elan ediləcək.

Namizədlərin siyahısı ilə bağlı məlumatı bu linkdən əldə etmək olar: https://t.me/azerbaycanidmani.

***L.QURBANOVA***
***XQ***

**Təqvim yada salır**

# Banişevski hakimlərin də sevimlisi idi



**Futbol ictimaiyyətimiz bu gün yenə Anatoli Andreyeviç Banişevskini böyük hörmət və dərin ehtiramla yad edir. Azərbaycan idmanının yetirdiyi ən görkəmli şəxsiyyətlərdən birinin əbədiyyətə qovuşmasının 27-ci ili tamam olur. Soyuq bir qış günündə, 1997-ci il dekabrın 10-da eşitdiyimiz acı xəbər respublikanın hər yerində ürək ağrısı, lal bir sükutla qarşılandı.**

Bu anım günündə əfsanəvi "9 nömrə"ni "Azərbaycan futbolu—100" kitabında verilmiş bir foto ilə xatırlayaq. Fotodan dolğun məlumat ala bilməsəm də, unudulmaz mərkəz hücumçumuza layiq şəkildir.

Dəqiq onu deyə bilərəm ki, foto, kitabda göstərildiyi kimi, 1977-ci ilin yadigarıdır. "Neftçi" 1976-cı ildə SSRİ çempionatının birinci dəstəsində uğurla çıxış edərək dörd illik fasilədən sonra yenidən güclülər dəstəsində təmsil olunmaq hüququ qazanmışdı.

Fotoda Respublika stadionundayıq. Rəqibimizin kimliyini müəyyənləşdirə bilmədim. Oyun başlamaq üzrədir. "Neftçi"nin kapitanı Banişevski nə barədəsə hakimlə söhbət edir. Onun hərəkətlərindən belə başa düşmək olar ki, çox şirin söhbət gedir.

Hakimin sağında əli belində dayanan futbolçunun kim olduğunu müəyyən etmək də çətin deyil. Hər şeydən göründüyü kimi, Banişevskinin komanda yoldaşı Səməd Qurbanov da öz kapitanının hakimlə söhbətini maraqla dinləyir.

Bu foto bir daha təsdiq edir ki, 1966-cı il Sovet İttifaqı və dünya çempionatlarının bürünc mükafatçısı, SSRİ yığma komandası heyətində 1972-ci ildə keçirilmiş Avropa çempionatının gümüş medalının sahibi, Əməkdar idman ustası, ölümündən bir il əvvəl Prezident Heydər Əliyevin sərəncamı ilə vətənin yüksək mükafatı "Şöhrət" ordeninə layiq görülmüş Anatoli Banişevski bütün futbol adamlarının, o cümlədən, ədalət təmsilçiləri olan hakimlərin sevimlisi idi. Yoxsa, o, Bakı ilə yanaşı, Moskva və Leninqradda, Kiyev və Minskdə, Tbilisi və Vilnüsdə, Daşkənd və Almaatada, Kişinyov və Riqada, eləcə də digər şəhərlərdə hədsiz rəğbət qazana bilməzdi.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***



**Sağlamlıq**

# Vanil sakitlik gətirir, öskürəyi kəsir

**Səhləbkimilər fəsiləsinə aid olan vanil bitkisi Meksika meşələrinin sahilyanı ərazilərində bitir. Ətrafındakı digər ağaclara dırmanaraq 2–3 santimetr qalınlığında tumurcuqları ilə 10 metrə qədər böyüyür. Müntəzəm olaraq becərilən və biçilən vanil bitkisi 5-ci ildə məhsul verir. 10 ildən sonra effektivliyini itirdiyindən çətin məhsul verən əziyyətli bitki hesab edilir.**

Vanil bitkisi ilk dəfə şokoladda əlavə maddə kimi tanınıb. Ondan alınan dərmanlar qladiatorların gücünü artırmaq, yorğunluğu və qoxuları aradan qaldırmaq, ürəyi gücləndirmək üçün istifadə olunub. Bitki sinirləri sakitləşdirir və psixoloji böhranı aradan qaldırmağa yardımçı olur. Temperaturu salır.



Vanil sinir sistemi və mədə-bağırsaq xəstəliklərinin müalicəsində də faydalıdır. Maddələr mübadiləsinin sürətlənməsinə yardım edir. Kalsium, natrium və dəmir ehtiva edir. Vanilin tərkibində xolesterol yoxdur, amma şəkər nisbəti yüksəkdir. Qoxusu insanda gərginliyi atmağı təmin edir və bədəni sakitləşdirir. Həzmi asanlaşdırır. Tənəffüs yollarını təmizləyir və öskürəyin qarşısını alır. Yorğunluğun, stresin və yuxusuzluğun aradan qaldırılmasında ideal vasitədir. Müqavimətin artmasına kömək edən bitkilər siyahısına daxildir. Qan dövranını nizamlayır.

Vanil daha çox kulinariyada istifadə edilən bir bitkidir. Xoş qoxusuna görə ondan ətir sənayesində də istifadə edilir.

***Z.HÜSEYNLİ***
***XQ***

## MEDİA-nın açıqlaması

**Bir sıra sosial şəbəkə istifadəçiləri tərəfindən Gəncə şəhəri ətrafında partlayış səslərinin eşidilməsi və təcili tibbi yardım maşınlarının intensiv hərəkətinin müşahidə olunması ilə bağlı paylaşılan məlumatlar həqiqəti əks etdirmir və cəmiyyətdə süni ajiotaj yaratmağa yönəlmişdir. Bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilir.**

Qeyd edilir ki, Azərbaycan Müdafiə Nazirliyi cari ilin hazırlıq planına uyğun olaraq, Quru Qoşunları bölmələrinin Seyfəli poliqonunda taktiki təlim keçirdiyini və narahatlığa heç bir əsas olmadığını bildirib.

"Sosial şəbəkə seqmentinə bu tipli yalan məlumatların yayılmasını və təkrar tirajlanmasını yolverilməz hesab edirik. Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların təsirinə düşməməyə çağırırıq", – deyə agentliyin açıqlamasında vurğulanır.

***✓ 1 saylı Bakı Dəmir Yolu Poliklinikasının həkim -kardioloqu Balakişiyeva Şəhanə İsax qızının həkim möhürü itdiyi üçün etibarsız sayılır.***

***✓ Camalzadə Xədicə Asəf qızına məxsus "CHEVROLET ORLANDO" markalı minik avtomobilinin 99 OR 816 nömrəli qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.***

***✓ "Royal Estates Group" MMC nizamnamə kapitalının azaldığını elan edir. (VÖEN-1405714841).***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov 66 saylı Saatlı Dairə Seçki Komissiyasının sədri Arif Əliyevə bacısı

**ŞƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi qocaman media nəzəriyyəçisi, Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin dosenti

**MAHMUD MAHMUDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4001 |
| SİFARİŞ | 2850 |
| QİYMƏTİ | 60 qəpik |

**Növbətçi redaktor**
**Mirbağır YAQUBZADƏ**

**Çapa imzalanmışdır 00:00**